

Türkiyəli alim: "Azərbaycan parlamentində Şuşa Bəyannaməsinin təsdiqlənməsi Qarabağ Zəfərinin nəticəsidir"

3

# Dünyanı düşündürən sual: Ukraynada müharibə olacaqmı?



14

Və ya Moskva ilə Vaşinqtonun konfrontasiyası kollektiv Qərbin Rusiyaya qarşı münasibətində dəyişikliklərə səbəb ola bilərmi?

Səs
№ 021 (6462) 4 fevral 2022-ci il. Qiymәti 60 qәpik

# İlham Əliyev: "Dəmir yumruq" sadəcə güc deyil, bu, birlikdir!



"Azərbaycan həmişə çoxmillətli, çoxkonfessiyalı diyar olub və bu da bizim ənənəmizdir. Əsrlər boyu müxtəlif xalqlar burada yaşamış, yaratmış, qardaş olmuşdur, bu gün də belədir. Multikulturalizm termin kimi yenidir, amma anlayış kimi bu, həmişə olub və həmişə olmalıdır. Mənim də...

2

"Hər hansı ermənipərəst siyasətçilərin manipulyasiyaları Türkiyə-Azərbaycan münasibətlərinə kölgə sala bilməz"



4

# Kamil peşə, yoxsa yalançı diplomlar?



8

# Mahir Emreli Zaqreb "Dinamo"sunda



Futbol üzrə Azərbaycan millisinin hücumçusu Mahir Emreli karyerasını Xorvatiyada davam etdirəcək. 25 yaşlı hücumçu Zaqreb "Dinamo"suna keçib. Bu barədə Xorvatiya klubunun rəsmi saytı məlumat yayıb. Polşa "Legiya"sı ilə müqavilәsini qarşılıqlı razılaşma ilə pozan... 16



## Türkiyə və İsrail əvvəlki kimi güclü müttəfiq ola biləcəklərmi?

10

Son vaxtlar istər Türkiyə, istərsə də İsrail tərəfindən ölkələrarası diplomatik münasibətlərə müsbət cəhətdən yenidən...



## Vaan Kerobyan: "Ermənistanın iqtisadiyyatı Türkiyə üçün açıqdır"

12

"Türkiyə şirkətləri hər zaman erməni şirkətlərinin kapitallarında yer alıb". SİA erməni KİV-lərinə istinadən xəbər...

# İlham Əliyev:

# “Dəmir yumruq” sadəcə güc deyil, bu, birlikdir



***“A**zərbaycan həmişə çoxmillətli, çoxkonfessiyalı diyar olub və bu da bizim ənənəmizdir. Əsrlər boyu müxtəlif xalqlar burada yaşamış, yaratmış, qardaş olmuşdur, bu gün də belədir. Multikulturalizm termin kimi yenidir, amma anlayış kimi bu, həmişə olub və həmişə olmalıdır. Mənim də sizə sözüm odur ki, siz bu dəyəri daim qoruyun. Çünki bizim gücümüz də birliyimizdə və müxtəlifliyimizdədir”. Bunu Prezident İlham Əliyev fevralın 2-də Gənclər Forumunda gənclərin suallarını cavablandırarkən bildirib.*

Dövlətimizin başçısı deyib: ”Azərbaycan çoxkonfessiyalı, bir çox etnik qrupların birgə yaşadığı unikal bir məkandır. Bu, böyük sərvətimizdir. Mən bunu yenə də deyirəm, sadəcə, xoş söz demək naminə demirəm. Mən daxilən 100 faiz buna əminəm ki, ancaq birlikdə, bütün xalqların birgə yaşaması bizi uğura, qələbəyə gətirəcək və gətirib. İkinci Qarabağ müharibəsində bütün xalqların nümayəndələri bir əsgər kimi vuruşdular, qan tökdülər, şəhid oldular. Vətən uğrunda, Qarabağ uğrunda, Azərbaycan uğrunda vuruşdular. Bu Qələbə və bu müharibə Azərbaycanda yaşayan bütün xalqları daha da birləşdirdi. ”Dəmir yumruq”, sadəcə, güc deyil, bu, birlikdir”

Bəli, bu gün artıq bütün dünya gördü ki, ”Dəmir yumruq”, sadəcə, güc deyil, bu, birlikdir”. Və bu birliyin nəticəsində haqq, ədalət bərpa olundu.

## GÜC VƏ HƏMRƏYLİK RƏMZİ OLAN ”DƏMİR YUMRUQ” - XALQ-İQTİDAR BİRLİYİ

44 gün davam edən əks-hücum əməliyyatları nəticəsində Azərbaycan ordusu işğal altında olan torpaqlarımızın böyük bir hissəsini hərb yolu ilə işğaldan azad etdi və düşmənə çox ağır zərbələr vurmaqla Ermənistanı təslim olmağa məcbur etdi. Şanlı Ordumuz tərəfindən Ermənistanın məğlub edilməsi və qələbənin təmin olunması dünya ictimaiyyətinə Azərbaycan xalqının haqq səsinin çatdırılmasına, əsrlər boyu davam edən erməni yalanlarının ifşasına və ən vacibi də ölkəmizin vətənpərvərliyinin, qələbə əzminin və xalq-iqtidar birliyinin nümayiş olunmasına gətirib-çıxardı. Qeyd edək ki, düşmən üzərində qələbənin qazanılmasında diplomatiya sahəsindəki uğurlarımız da xüsusi rol oynadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin döyüşlərin getdiyi bir vaxtda ermənilərə havadarlıq edən iri dövlətlərin təzyiqlərinə və xarici mətbuat nümayəndələrinin qərəzli suallarına təmkinlə, əsaslı faktlarla cavab verməsi Ermənistanla aparılan lokal müharibədə Azərbaycana uğur gətirdi. Noyabr ayının 10-da Ermənistanın kapitulyasiyasını etiraf etməsi ilə imzalanan Bəyanat ümumilikdə Azərbaycanın Ermənistan üzərində qələbəsini rəsmiləşdirdi. Dövlətçiliyimizin ən şərəfli səhifələrini yazan bu zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına Ali Baş Komandanımızın ”Dəmir yumruq” əməliyyatı ilə son qoydu.

## AZƏRBAYCAN PREZİDENTİ QARABAĞIN DİRÇƏLİŞİ YOLUNDA BİR ÇOX DÖVLƏTLƏRİN 10 İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİYİ İŞLƏRİ REALLAŞDIRIB

Artıq Qələbə Zəfərimizdən bir il keçməsinə baxmayaraq Azərbaycan Prezidenti Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb. ”Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manea ola bilməz”,- deyən Qalib Lider hər dəfə işğaldan azad olunmuş torpaqlara səfərləri zamanı dəfələrlə bildirib ki, işğaldan azad olunmuş ərazilərimizin qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz. Artıq torpaqlarımız işğaldan azad olunandan sonra həmin ərazilərdə infrastrukturun qurulması, məcburi köçkünlərin vaxtında geri qayıtması üçün dövlət tərəfindən çox böyük işlər görülür. Və bu gün artıq Zəngilanın Ağalı kəndində ”ağıllı kənd” layihəsi başa çatıb. Qısa müddətdə məcburi köçkünlərimiz öz dədə-baba torpaqlarına qayıdacaq. Dövlət başçımızın dediyi kimi: ”Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq”.

## ”BƏRPA İŞLƏRİ GENİŞ VÜSƏT ALIB”

Bu gün artıq işğaldan azad olunmuş torpaqlara yeni həyat bəxş edilir, düşmənin xarabalığa çevirdiyi Qarabağ yenidən dirçəlir və 30 ildən sonra düşməndən azad edilən dədə-baba torpaqlarımız öz doğma sakinlərinin gəlişini səbirsizliklə gözləyir. Və bu gün bir ildə görülən işlər də təsdiqləyir ki, o gün heç də uzaqda deyil. Çünki dövlət başçımızın dediyi kimi, ölkəmizdə xalq-iqtidar birliyi, həmrəyliyi var.

Prezident İlham Əliyev fevralın 2-də Gənclər Forumunda bildirib ki, bu il isə həm ənənəvi işlər, yəni, infrastruktur işləri, eyni zamanda, məcburi köçkünlər üçün nəzərdə tutulmuş yaşayış binalarının inşası da artıq başlanacaq. Dövlətimizin başçısı bildirib ki, azad edilmiş torpaqlarda bu il 5 su elektrik stansiyası inşa ediləcək. Nəzərdə tutulan layihələr arasında Ağalı kəndinin inşasının artıq tamamlanmasını qeyd edən Prezident deyib ki, bunun böyük rəmzi mənası var: ”Çünki artıq bu il ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar və Ağalı kəndi elə bil bizim istədiyimizin təcəssümüdür”.

Prezident İlham Əliyev cari ildə Zəngilan Hava Limanının açılacağını, 2023-cü ildə dəmir yolunun Ermənistan sərhədinə gətiriləcəyini, avtomobil yolunun tikintisinin isə davam etdiyini diqqətə çatdırıb. Bütün bu işlərdə gənclərin fəal iştirak etdiklərini söyləyən dövlətimizin başçısı deyib: ”İndi azad edilmiş ərazilərdə müxtəlif kənd təsərrüfatı layihələri icra edilir. Deyə bilərəm ki, bu il 40-50 min hektarda əkin işləri nəzərdə tutulur. Bu, bizim ərzaq təhlükəsizliyimizi təmin edəcək. Orada da işləyənlərin əksəriyyəti gənclərdir. Ona görə gənclər, əlbəttə ki, bu işlərdə qabaqcıl rol oynayacaq, onlar öz təşəbbüslərini də gərək ortaya qoysunlar”.

## “ELƏ ÖLKƏ YARATMIŞIQ Kİ, HƏR BİR VƏTƏNDAŞ BU ÖLKƏ İLƏ FƏXR EDƏ BİLƏR”

”Elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər”. Bunu Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda sualları cavablandıran Prezident İlham Əliyev deyib. ”Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır. Ancaq, eyni zamanda, hər bir insan, xüsusilə gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir. Müstəqilliyimizin 30 illiyini keçən il qeyd etmiş ölkə kimi bu gün biz deyə bilərik, elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər. Çünki istənilən sahəyə baxdıqda görürük ki, doğrudan da böyük tarixi nailiyyətlərə imza atmışıq. Əlbəttə, problemlər də var, çatışmazlıqlar da var. Bu çatışmazlıqlarla mübarizə aparırıq və aparacağıq. Amma əgər ümumiyyətlə bu tarix kəsiyində bu dövrü təhlil etsək görərik ki, biz tarixi nailiyyətlərə imza atdıq”, - deyə dövlətimizin başçısı qeyd edib.

Elə bu günlərdə işğaldan azad edilən şəhər və rayonlara marşrutların açılması, onun ardınca ilk ”Ağıllı kənd”in inşasının başa çatması xəbəri Vətənini, xalqını, dövlətini sevən hər bir Azərbaycan vətəndaşını qürurlandırır. Çünki Qalib Liderimiz, Prezident İlham Əliyevin ”Dəmir yumruq” siyasəti ilə 44 gün ərzində Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərimizin igidliyi ilə 30 illik həsrətə son qoyaraq ”Qarabağ Azərbaycandır!” əsil sahibinə - Azərbaycanımıza qaytarıldı.

Dövlət başçımızın dediyi kimi: ”Çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır”. Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa edərək öz torpaqlarımıza sahib olduq. Dəfələrlə ”Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq” istəyi ilə yaşayan xalqımızın istəklərini Qalib Liderimiz ”Dəmir siyasəti” ilə 44 gün davam edən İkinci Vətən Müharibəsini Zəfərlə başa vuraraq yerinə yetirdi. 1992-ci il may ayının 8-də erməni təcavüzkarları tərəfindən Şuşa işğal olunsa da, 2020-ci il noyabrın 8-də - 28 ildən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu gün Müzəffər, Sarsılmaz, Şanlı Ordumuz, rəşadətli əsgər və zabitlərimizin gücü ilə 28 il həsrətində olduğumuz, Azərbaycanın ürəyi, mirvarisi, o cümlədən bütün Qafqazın mədəniyyət beşiyi olan Şuşa şəhərini düşmən işğalından azad etdi. Prezidenti İlham Əliyev noyabrın 8-də Şəhidlər Xiyabanında xalqa etdiyi müraciəti isə bütün xalqımızın Qarabağ həsrətinə məlhəm oldu. Ali Baş Komandanın tarixi müraciətindən: ”Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq”.

Və bu gün bu birlik, Azərbaycan dövlətinin qüdrəti, Müzəffər Ali Baş Komandanın iradəsi və Ordumuzun şücaəti sayəsində Qarabağ işğaldan azad olundu. Haqq və ədalətin bərpası isə əlbəttə ki, şəhidsiz, qazisiz ötüşmədi. Hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq, qazi olaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirdilər. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edildi. Məhz onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı, xüsusilə gənc nəsil üçün örnək olmalıdır. Çünki Azərbaycan gəncləri Vətən Müharibəsində böyük şücaət göstərdilər, vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişmiş gənclər torpaqlarımızı işğalçılardan azad etdilər. İşğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşdular. Bu, bir tarixi hadisə idi və Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmayıb. Məhz 44 günlük Vətən Müharibəsində Azərbaycan dövləti və xalqı bütün dünyaya öz gücünü göstərdi. ”Dəmir yumruq” birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqı qələbə, zəfər tarixi yazdı.

Ali Baş Komandanımız, Prezident İlham Əliyevin gənclərlə görüşdə dediyi kimi: ”Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş gənclər öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olmalıdırlar”.

Beləliklə, Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: ”Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bax bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar”.

**RƏFİQƏ KAMALQIZI**


Ozarbayjon prezidenti adolat tantanasi haqida gapirdi

02.02.2022 S.Salim

Yozuvni tanlang

Кирилл | Lotin

Qidirish...

Mavzular

Bosh sahifa
Yangiliklar
Matbuot
Ilm va fan
Tarix
Hikmatnoma
Suhbatlar
O'zbek ziyolilari
Oila va jamiyat
Ajoyibotlar
Kutubxona
Videoteka

Adabiyot

O'zbek mumtoz she'riyati
O'zbek she'riyati
Jahon she'riyati
O'zbek xalq og'zaki ijodi
O'zbek nasri onlayn antologiyasi
Jahon nasri onlayn antologiyasi
Eng sara asarlar

Ozarbayjon prezidenti Ilhom Aliyev Ganja shahrida AZƏRTAC axborot agentligiga bergan intervyusida yaqin kechmishning muhim xulosalari va istiqboldagi rejalar bilan o'rtoqlashdi.

Ozarbayjon yetakchisi, xususan, ikkinchi Qorabog' urushi davrida Armaniston armiyasi Ganjaning tinch aholisini o'qqa tutgani haqida gapirdi.

Qayd etilishicha, Ozarbayjonning ikkinchi yirik shahriga "Tochka-U", "SKAD" kabi raketalar otilgan. Oqibatda bolalar, ayollar hamda keksalar halok bo'lgan. Birgina Ganja shahrida 26 nafar tinch aholi vakili bevaqt hayotdan ko'z yumgan

# Özbəkistan saytlarında Azərbaycan Prezidentinin AZƏRTAC-a müsahibəsi ilə əlaqədar məqalələr dərc edilib


xabar.uz

Все новости | Узбекистан | Мир | Технология | Ещё | Вход | O'z Ўз Ру

Ильхам Алиев прокомментировал прекращение показа в России фильма о фашисте Нжде

01.02.2022 17:47 0 555

Фото: РИА «Новости»

Президент Азербайджана Ильхам Алиев прокомментировал прекращение показа в России фильма о пособнике Гитлера, армянском фашисте Гарегине Нжде.

Важно

Технология 461
Предприниматели, оказывающие компьютерные услуги, получили ряд налоговых льгот

Право 2095
Президент помиловал 63 осужденных

Политика 4218
Президент не одобрил три проекта по строительству спортивных сооружений в школах и махаллях

Происшествия 3854
В Минздраве рассказали о состоянии девочки, которую сбросили в вольер с медведем

Происшествия 5159
В Ташкентском зоопарке

**Özbəkistanın ”xabar.uz” və ”ziyouz.uz” portalları öz səhifələrində Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibəsi ilə əlaqədar özbək və rus dillərində məqalələr yerləşdirib.**

”xabar.uz” portalı yazır ki, AZƏRTAC-ın müxbirinin bu günlərdə Rusiyada erməni faşist Qaregin Njde haqqında filmin yayımının dayandırılması ilə bağlı sualına Azərbaycan Prezidenti İlham Əliyev belə cavab verib: ”İlk dəfə olaraq, bu məsələni siyasi müstəviyə gətirən mən olmuşam. Mən əvvəlki illərdə də dəfələrlə bu erməni faşistləri haqqında öz çıxışlarımda məsələ qaldırmışdım. Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışdım ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan vermək olmaz. Cəllad Njde ilə bağlı mən MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında - İrəvanda qoyulan abidə faşizmin təbliğatıdır. Buna son qoyulmalıdır. Bu adam faşist olub. Bu adam cəllad olub. Bu adam günahsız azərbaycanlıların və ondan sonra İkinci Dünya müharibəsi zamanı sovet ordusunun əsgərlərini, zabitlərini qətlə yetirib”.

”ziyouz.uz” portalı müsahibəyə istinadla yazır ki, Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb.

Prezident deyib: ”Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm ”Toçka-U”, həm ”SCUD” raketləri ilə atəşə tutulurdu”.

# “Olimpiya Oyunları sözün geniş mənasında dünya miqyaslı hadisədir”

**Olimpiya Oyunları təkcə idman baxımından deyil, həm də sözün daha geniş mənasında dünya miqyaslı böyük hadisədir. Olimpiya Oyunları müasir dünyamızda çox ehtiyac duyulan sülh, humanizm və mehriban qonşuluq ideyalarını təbliğ edir.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş nazirinin müavini Əli Əhmədov bu fikirləri Olimpiya oyunları ilə bağlı tədbirlərdə iştirak etmək üçün Çinə səfər ərəfəsində Sinxua agentliyinə verdiyi məxsusi müsahibədə açıqlayıb.

Ə.Əhmədov qeyd edib ki, Çin qlobal tədbirləri ən yüksək səviyyədə keçirmək üzrə çox zəngin təcrübəyə malikdir. 2008-ci ilin Yay Olimpiya Oyunları buna əyani nümunədir. Düzdür, 2022-ci ilin Qış Olimpiya Oyunları COVID-19 ilə bağlı mürəkkəb pandemiya şəraitində keçiriləcək. Lakin cari ilin əsas idman tədbiri də həm idman və sosial baxımdan, həm də sanitariya təhlükəsizliyinin təmin edilməsi cəhətdən yüksək səviyyədə təşkil edilib.

Azərbaycanın Baş nazirinin müavini son illərdə Çin-Azərbaycan münasibətlərini qiymətləndirərək vurğulayıb ki, bizim qarşılıqlı münasibətlər hərtərəfli siyasi dialoq, iqtisadi sahədə qarşılıqlı faydalı əməkdaşlıq, ”Bir kəmər - bir yol” qlobal təşəbbüsünün həyata keçirilməsində fəal iştirak ilə səciyyəvidir. Ticari-iqtisadi əlaqələr genişlənir, Çinin bəzi şəhərlərində Azərbaycan ticarət evləri açılıb və fəaliyyətə başlayıb.

Ə.Əhmədov vurğulayıb: ”Əminəm ki, ölkələrimizin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında yaranmış sıx tərəfdaşlıq münasibətləri Azərbaycan ilə Çin arasında qarşılıqlı faydalı əməkdaşlığın böyük potensialı hesabına zənginləşəcək. Bu potensialdan bacarıqla istifadə edilməsi hər iki dövlətə və onların cəmiyyətlərinə ciddi səmərə təmin edə bilər”.

Humanitar sahədə əməkdaşlığın durmadan inkişaf etdiyini vurğulayan Ə.Əhmədov buna əyani nümunə kimi Pekində Tayhu qlobal mədəni forumunun keçirilməsində Heydər Əliyev Fondunun fəal iştirakını qeyd edib.

Baş nazirinin müavini vurğulayıb ki, Çin son onilliklərdə bütün dünyada sosial, siyasi və iqtisadi transformasiyanın parlaq nümunəsidir. Ən başlıcası, Çində baş verən dəyişikliklər təkcə daxili xarakter daşımır. Çinin transformasiyası bütün dünyanın həyatında öz əksini tapmış qlobal layihədir. Başqa sözlə desək, müasir qlobal transformasiyanı Çin Xalq Respublikasında baş verən dərin dəyişikliklərsiz təsəvvür etmək mümkün deyil.

Ə.Əhmədov sonda Çin hökumətinə və bu ölkənin xalqına 2022-ci il Qış Olimpiya Oyunlarının keçirilməsində uğurlar, Pekinə gəlmiş idmançılara isə yüksək idman nailiyyətləri arzu edib.

# Türkiyəli alim: “Azərbaycan parlamentində Şuşa Bəyannaməsinin təsdiqlənməsi Qarabağ Zəfərinin nəticəsidir”

***Bu günlərdə Azərbaycan parlamentində təsdiqlənən Şuşa Bəyannaməsi Qarabağ Zəfərinin məntiqi nəticəsidir. Türkiyə ilə Azərbaycan arasında minilliklərə dayanan tarixi qardaşlıq Şuşa Bəyannaməsi ilə yeni zirvələrə yüksələrək müttəfiqlik səviyyəsinə çatıb.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyədə fəaliyyət göstərən Siyasi və Strateji Araşdırmalar Vəqfinin sədr müavini doktor Sinan Demirtürk ifadə edib.

Türkiyənin Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini heç zaman qəbul etmədiyini və Qarabağ Zəfərindən sonra Ermənistanla normallaşmanı ölkəmizin xarici siyasətinə uyğun həyata keçirdiyini diqqətə çatdıran alim deyib: ”Həm keçmiş Qarabağ məsələsində, həm Qafqazdakı bütün proseslərdə, həm də Türkiyə və Azərbaycanın ortaq maraqlarının təmin edilməsində Şuşa Bəyannaməsi tarixi əhəmiyyətə malik sənəddir”.

Azərbaycan və Türkiyə parlamentlərinin bu Bəyannaməni təsdiqləməsinin müttəfiqliyimizin dünyaya bəyan edilməsi olacağını vurğulayan doktor Sinan Demirtürk əminliklə bildirib ki, bu sənəd, eyni zamanda, Azərbaycan, Türkiyə və Gürcüstan arasında qarşılıqlı maraq doğuran proseslər çərçivəsində əməkdaşlıq əlaqələrini yeni məcraya yönəldəcək. Qarabağ Zəfəri regionda normal inkişaf tərzini qəbul edən bütün tərəfləri inkişaf və tərəqqi yolunda əməkdaşlığa çağırır.



# Azərbaycan-İran

## münasibətləri vüsət alır

***Rəsmi Bakı və Tehran qarşılıqlı münasibətlərdə bir zamanlar problem kimi görünən məsələlərin öhdəsindən gəldiyi özünü artıq biruzə verməkdədir. İndi çoxlarını düşündürən odur ki, görəsən İran Cənubi Qafqaz regionunda hansı siyasət yürüdəcək? Ələlxüsus, Türkiyə-Azərbaycan tandeminin güclənməsinə İranın necə reaksiya verəcəyi də hər kəs üçün maraqlıdır.***

Azərbaycanın müdafiə nazirinin İrana rəsmi səfəri, eyni zamanda İranın yollar və şəhərsalma nazirinin Füzuli hava limanına gəlişi, daha sonra da onun Azərbaycan paytaxtında, Bakıda cənab Prezidentlə görüşü bir çox məqamlara aydınlıq gətirir. Daha dəqiq desək, hadisələrin gedişinə, müşahidə edilənlərə istinad etsək görərik ki, artıq iki ölkə, Azərbaycan və İran arasında münasibətlərdə yeni mərhələnin başlandığı günümüzün reallığıdır.

Diqqətə çatdırmaq yerinə düşərdi ki, Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) sammiti çərçivəsində iki ölkə prezidentinin görüşündən sonra Azərbaycan-İran münasibətləri yeni vüsət almağa başlayıb. Amma nəzərə almaq lazımdır ki, bu proses heç də təsadüfi deyil, birdən-birə də ortaya çıxmayıb və buna hazırlıq bir neçə həftə əvvəl baş nazirin müavini Şahin Mustafayev İranda rəsmi səfərdə olanda və İranın yollar naziri ilə görüşəndə aparıldığı zənn edilir, harada ki, iqtisadi gündəm müzakirə edilib. Görünür elə məhz bundan sonra ikitərəfli iqtisadi dialoqun intensivləşdirilməsi haqqında qərar qəbul edilib. Aşqabadda keçirilən görüşdə iki ölkənin prezidentləri bu kursu təsdiqlədilər və sonra bu gündəm indi həyata keçirilir, reallaşacağı da şünhə doğurmur. Çünki, heç nə təsadüfi sayılmır və rəsmi şəxslərin bütün səfərləri əldə edilmiş razılaşmaların məntiqi ardıcıllığıdır.

Görünən odur ki, əldə olunan bütün razılaşmaların reallaşmasına yaxın aylarda başlanacağı gözləniləndir. Daha dəqiq desək, İranın işğaldan azad edilmiş ərazilərdə Araz çayı üzərində bərpa işlərində, Culfada, eləcə də digər sahələrdə dəmir yollarının yenidən qurulmasında iştirakını tezliklə müşahidə edəcəyik. Hətta Cəbrayıl rayonunun Xudafərin ərazisində nəzarət-buraxılış məntəqəsinin açılacağı da planlaşdırılır, hansıki bu, Qarabağda yenidənqurma proseslərində İrana daha fəal iştirak etmək imkanı verəcək.

Şübhəsiz ki, yaxına gələcəkdə hər iki ölkənin hökumətlərarası komissiyasının iclasının keçiriləcəyi də gözlənilir. Bu iclasda da bütün məsələlərə əlavə olaraq baxılacağı da gözləniləndir, hətta ola bilsin ki, müəyyən qərarlar da qəbul olunacaq. Artıq İranın yeni rəhbərliyinin Bakı ilə münasibətlərdə yeni prioritetlər və təşəbbüslər irəli sürməyə çalışdığı göz önündədir. Bunun da yaxın zamanda müsbət nəticələr verəcəyi təkzib edilə bilməz.

Azərbaycan müdafiə nazirinin İrana səfərinə diqqət çəkmək kifayət edir ki, münasibətlərdə yeni mərhələnin başlandığı qənaətinə gəlmək olsun. Bu da bəlli məsələdir ki, irəli sürülən 3+3 formatı təhlükəsizlik məsələlərini ön plana çəkir. Ümumiyyətlə, bir çox məsələlərin operativ şəkildə həll olunması üçün müdafiə nazirlikləri arasında təmaslara ehtiyac duyulur. Bu baxımdan gələcək perspektivlərdə hələ çoxlu sayda görüşlər də gözləniləndir. Nəticə etibarı ilə bütün bunlar münasibətlərin daha da yaxşılaşmasına zəmin yaradır. Baxmayaraq ki, bir il öncə Azərbaycan və Ermənistan arasındakı gərginliyə görə Tehranla Bakı arasında müəyyən soyuqluq və anlaşılmazlıq yaranmışdı, indi bəzi məsələlərə artıq aydınlıq gətirilib, hansıki bütün bunlar nikbin proqnozlar vəd edir.

İki ölkə arasında, Azərbaycan və İran arasında münasibətlərin fonunda Zəngəzur dəhlizi layihəsi də maraq doğurur. Təbii ki, insanları maraqlandıran suallar da ortaya çıxır. Görəsən, İran Zəngəzur dəhlizi layihəsində maraqlıdırmı? Yaxud, Türkiyə və Azərbaycanın öz mövqelərini gücləndirmələrini rəsmi Tehran özü üçün risk hesab edə bilərmi? Əlbəttə ki, əvvəla, Zəngəzur dəhlizi heç bir ölkə üçün maraq kəsb etməyə bilməz. Bu dəhliz əlaqələrin yaradılmasında mühüm əhəmiyyət kəsb edir və bu baxımdan da maraqlı olmayacağı ağıla belə gəlmir. Əksnə, münasibətlərin daha da yaxşılaşdırıla biləcəyini vəd edir. Digər tərəfdən, Türkiyə və Azərbaycanın öz mövqelərini gücləndirmələri bölgədə sabitliyin bundan sonra da qorunması anıamına gəlir, hansıki bu fakt özü-özlüyündə risk amilini aradan götürür, imkanları daha da genişləndirir. Bir sözlə, heç bir mənada münasibətlərə əngəl olacaq fakt ortada yoxdur. Göründüyü kimi, İranın Zəngəzur dəhlizində maraqlı olması ortaya çıxır. Bu fonda məhz yaxın vaxtlarda Culfadan keçən dəmir yolunun yenidən qurulması məsələsi də gündəmdə ola bilər. Beləliklə, İran Cənubi Qafqaz ölkələri ilə dəmir yolu əlaqəsini bərpa etməkdə yalnız maraqlı ola bilər. Çünki, Zəngəzur dəhlizinə qoşulmaqla İran öz yüklərini bu dəhliz vasitəsilə həm Rusiyaya, həm də Türkiyəyə göndərmək imkanı verə bilər.

Nəzərə alsaq ki, İran regional siyasi proseslərə qoşulmağa, bu proseslərdə fəal iştirakçı olmağa maraqlıdır, deməli, İranın "3+3" formatı çərçivəsində əməkdaşlıqda qoşulması da başadüşüləndir. Çünki, bu qonşu ölkə proseslərdə yalnız müşahidəçi qismində iştirak etmək istəməz, halbuki bu zamana qədər Ermənistanın işğalçılıq siyasəti sayəsində məhz belə olub və İran regionda gedən proseslərdə sadəcə müşahidə edən tərəf rolunda görünüb. Təsəvvür edəndə ki, indi artıq İranın bu proseslərə fəal təsir göstərmək, öz təklifləri ilə çıxış etmək imkanı yaranır, deməli, bu qonşu ölkənin bütün bunlardan imtina edəcəyi heç ağlasığan görünmür.

Təcrübə təsdiq edir ki, bir qədər öncə, bir neçə ay bundan əvvəl İranın məsələləri birtərəfli qaydada həll etmək cəhdləri faydasız oldu. Daha dəqiq desək, İran tərəfinin öz gündəmini Azərbaycan və Türkiyənin danışıqlar xəttindən ayrı irəli sürmək cəhdləri baş tutmadı, yaxud da uğursuzluqla nəticələndi. Bir az da yumşaq desək, İranın belə bir cəhdi alınmadı və İran Rusiya ilə daha çox əlaqə saxlamağa çalışsa da bu çalışqanlıq heç bir bəhrə vermədi. Bu baxımdan indi "3+3" formatında İranın öz gündəmini irəli sürmək imkanını əldən verəcəyinə çətin ki, kimsə inana.

Türkiyə ilə qarşıdurma rəsmi Tehran üçün sərfəli deyil. İranın nə Ankaraya, nə Moskvaya, nə də Bakıya alternativ variantı da yoxdur axı. İran üçün, eləcə də bu ölkənin siyasətində hər bir ölkənin özünəməxsus əhəmiyyəti var. Heç bir ölkə ilə münasibətlərin pozulmasında İran maraqlı ola bilməz, xüsusən də Türkiyə, Azərbaycan və Rusiya ilə. Ukrayna münaqişəsində Türkiyənin NATO tərəfində mümkün iştirakı fonunda belə Moskva ilə Ankara arasında İranın seçim edəcəyi ağlabatan deyil. Çünki belə bir seçimlə İran, Avropa ölkələrinə Türkiyə vasitəsilə qaz nəqlini itirə bilər. Müzakirə mövzusu təkcə qaz deyil, söhbət digər məhsullardan da gedir. Türkiyə İranın əsas iqtisadi tərəfdaşlarından biri olaraq qalır və qarşı tərəf nüvə sazişi üzrə dialoq gündəliyinin təşviqinə belə fəal töhfə verir. Ümumiyyətlə, nəzərə alsaq ki, NATO-nun Yaxın Şərqdə üzvü kimi Türkiyə region dövlətləri ilə vasitəçi rolunu oynayır, deməli, İran üçün belə bir siyasət sərfəlidir və ona görə də bu ölkənin Ankara ilə münasibətləri korlamayacağı təkzib edilə bilməz.

Bütün bunların fonunda cəsarətlə deyə bilərik ki, Azərbaycanla İran arasında münasibətlərin yaxşılaşmasına mane ola biləcək heç nə yoxdur. Əksinə, regionda yaranan, daha dəqiq desək, Azərbaycanın yaratdığı reallıqlar ölkələrimiz arasında münasibətlərin daha da yaxşılaşmasına əsaslı zəmin yaradır. Bu yaradılan zəmin sayəsində isə Azərbaycan-İran münasibətləri yeni vüsət alır, hansıki bunu görməmək də mümkün deyil.

***İnam Hacıyev***

# "Hər hansı ermənipərəst siyasətçilərin manipulyasiyaları Türkiyə-Azərbaycan münasibətlərinə kölgə sala bilməz"

**Vurğulamaq istərdik ki, Azərbaycan ilə qardaş Türkiyə arasında bütün sahələrdə olduğu kimi, enerji sahəsində də açıq, tamamilə şəffaf, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri mövcuddur. Azərbaycan və Türkiyənin möhkəm işbirliyi, dostluğu və qardaşlığı əsasında, iki ölkə liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində reallaşan nəhəng və strateji Trans-Anadolu qaz kəməri layihəsi (TANAP) enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir.**

TANAP layihəsinin toplam investisiya məbləği 6,3 milyard ABŞ dollarıdır. Layihənin həyata keçirilməsi zamanı təmin edilən məşğulluq sayı pik vaxtlarda 15 min nəfərə çatıb və investisiya məbləğinin böyük hissəsi yerli istehsalçılar hesabına təmin edilib. Nəzərə alınmalıdır ki, TANAP layihəsi vasitəsilə Türkiyə sənayesinə və müvafiq sektorlara böyük əlavə dəyər təmin edilib. Xüsusilə vurğulamaq istərdik ki, bu layihədə qəbul olunan tariflər bütün beynəlxalq standartlara tam cavab verir. Türkiyə tərəfi, eyni zamanda, layihədə BOTAŞ şirkəti vasitəsilə 30 faiz ortaq olduğu üçün eyni miqdarda tranzit gəlirləri də qazanmaqdadır.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva Türkiyə Böyük Millət Məclisinin Cümhuriyyət Xalq Partiyasından olan millət vəkili Aykut Ərdoğdunun Azərbaycan ilə




Türkiyə arasında enerji sahəsində əlaqələrlə bağlı, habelə iki ölkənin dövlət başçısına qarşı irəli sürdüyü tamamilə əsassız ittihamlarla bağlı KİV-in suallarını cavablandırarkən bildirib.

L.Abdullayeva deyib: "Qeyd etmək istərdik ki, Türkiyə Azərbaycan ilə yanaşı, Rusiya, İran, Qətər, Nigeriya və digər ölkələrdən təbii qaz idxal etməkdədir. Bu istehsalçılar arasında Azərbaycan tərəfindən təmin edilən təbii qazın qiyməti ən aşağı səviyyədədir. Burada vacib digər bir məqam ondan ibarətdir ki, təbii qaz qiymətlərinin ən pik həddə olduğu və qaz çatışmazlığının artdığı zamanda TANAP layihəsinin mövcudluğu, Türkiyə üçün həm iqtisadi, həm də sosial müstəvidə yeni imkanlar yaratmaqla yanaşı, Türkiyənin enerji təhlükəsizliyinin davamlılığını təmin edir.

Türkiyənin ən iri müəssisələrindən olan "Petkim"ə gəldikdə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Türkiyə Respublikasında olan törəmə şirkəti "SOCAR Türkiyə" 2008-ci ildə 2 milyard 40 milyon ABŞ dolları investisiya ilə tam açıq və şəffaf tenderin qalibi olub. Növbəti illərdə "Petkim"ə qoyulan əlavə investisiyaların ümumi məbləği 1,2 milyard dollara çatıb.

Eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkətinin çoxmilyardlıq investisiyası əsasında "STAR" Neft emalı zavodunun tikintisi və onun "Petkim" neft-kimya zavodu ilə inteqrasiyası nəticəsində Türkiyə Respublikası ərazisində əlavə 2 milyard ABŞ dolları dəyərində məhsulların istehsalına şərait yaradıb. Belə ki, Türkiyədə əvvəllər həmin məhsulların xaricdən alınmasına 2 milyard ABŞ dolları xərclənirdi.

Azərbaycan və Türkiyə Respublikası arasında olan dostluq və qardaşlıq münasibətləri, ölkə rəhbərlərinin birgə səyləri nəticəsində yaradılan bu imkanlar bu günədək Azərbaycan tərəfindən Türkiyə ərazisinə 19 milyard ABŞ dollarından artıq investisiya qoyulmasına imkan yaradıb.

CHP millət vəkilinin Azərbaycan və Türkiyə liderlərinin guya ki, "qarışıq və qaranlıq əlaqələri" kimi təqdim etdiyi tamamilə əsassız ittihamları rədd edirik. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın münasibətləri iki dövlətin milli maraqlarına əsaslanan qardaşlıq münasibətləridir. Məhz bu münasibətlər nəticəsində iki ölkə arasındakı strateji tərəfdaşlıq daha da möhkəmlənib, tarixi Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə ucalıb, iki xalq arasındakı qardaşlıq bağları heç bir zaman olmadığı qədər güclənib.

Əfsuslar olsun ki, bu, ilk dəfə deyil ki, CHP nümayəndəsi anti-Azərbaycan mövqeyindən çıxış edərək, əsassız iddialarla aranı qarışdırmağa çalışır. Lakin bu cəhdlərin heç bir perspektivi yoxdur, çünki Türkiyə-Azərbaycan münasibətlərinə hər hansı ermənipərəst siyasətçilərin manipulyasiyaları kölgə sala bilməz. Azərbaycan tərəfi CHP millət vəkili tərəfindən irəli sürülən əsassız ittihamlara görə üzrxahlıq gözləyir. Əks təqdirdə, biz məsələnin hüquqi müstəvidə qaldırılması hüququnu özümüzdə saxlayırıq".



# Prezident mükafatçıları təəssüratlarını SİA ilə bölüşüb

**Xəbər verdiyimiz kimi fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirilib. Gülüstan sarayında təşkil olunan Gənclər Forumunda Prezident İlham Əliyev başda olmaqla gənc sahibkarlar, dövlət proqramlarının iştirakçıları, keçmiş məcburi köçkün, şəhid ailələrinin gənc üzvləri, Vətən müharibəsi iştirakçıları, təhsildə və sosial inklüziv fəaliyyətdə fərqlənənlər iştirak ediblər. Tədbirin sonunda isə cənab Prezident bir sıra gəncləri müxtəlif sahələr üzrə mükafatlandırıb.**

Forumdan dərhal sonra SİA Prezident mükafatçılarının təəssüratlarını öyrənib və onları sizə təqdim edirik.

**Mədəniyyət sahəsi üzrə Prezident mükafatçısı Azər Quliyev:** ”Cənab Prezident tərəfindən mükafatlanmaq çox böyük və qürurlu bir hissdir. Əlbəttə ki, hər kim bu mükafat layiq görülübsə, bu etimadı gələcəkdə doğrultmalıdır. Müasir Azərbaycan gənci mənim düşüncəmdə vətənpərvər ruhda yetişən, müasir və gələcək Azər-




baycanın quruculuq prinsipində ən vacib elementlərdən biridir”.

**Elm sahəsi üzrə Prezident mükafatçısı Lalə Axundova:** ”Mən Axundova Lalə Əhməd qızı Milli Elmlər Akademiyasının nümayəndəsi, eyni zamanda Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda doktorant və əməkdaşam. 2 fevral 2022-ci ildə Gülüstan sarayında cənab Prezident İlham Əliyev mənim elmi fəaliyyətimi və əməyimi çox böyük mükafat-




la qiymətləndirib. Buna görə cənab Prezidentə dərin təşəkkürümü bildirirəm. O cümlədən də valideynlərimə, elmi rəhbərlərimə mənə daim dəstək olduqlarına görə dərin təşəkkürlərimi bildirmək istəyirəm”.

**Naxçıvan Dövlət Universitetinin müəllimi, Prezident mükafatçısı Əziz Qasımov:** ”Cənab Prezident tərəfindən mükafatlanacağımı eşidəndə



çox sevindim. Bu mükafat təkcə mənə verilən dəyər deyil, eyni zamanda Naxçıvan Muxtar Respublikasının gənclərinə verilən dəyərdir. Azərbaycan gəncləri bu gün həqiqətən də çox aktivdirlər. Onlar ölkəmizin, müstəqilliyimizin inkişafı naminə daim xidmət göstərirlər. Bizim fəaliyyətimizin Prezident tərəfindən qiymətləndirilməsi həqiqətən bizi çox sevindirdi. Dövlət başçısının insan kapitalının formalaşdırılması sahəsində müəyyənləşdirdiyi strategiya bu gün Azərbaycanda gənclər siyasətini tamamilə yeni mərhələyə yüksəldib. Azərbaycan artıq bu gün dünyada vətənpərvər və istedadlı gənclər ölkəsi kimi tanınır. 44 günlük Vətən müharibəsində biz bunun bir daha şahidi olduq”.

**Gənclərin inkişaf və karyera mərkəzinin Abşeron nümayəndliyinin direktoru, Prezident mükafatçısı Coşqun Hidayətov:** ”Azərbaycanda



gənclər siyasətinin əsası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Gənclər siyasətində aparılan islahatların nəticəsi idi ki, məhz Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi 1994-ci ildə yaradıldı. Ardıcıl olaraq Gənclərin Qurultayı, forumları keçirildi. Bundan əlavə Gənclər Fondu, QHT-lər, gənclərlə fəaliyyət göstərən gənclər təşkilatları yaradıldı. Bu da gənclər siyasətinin uğurlu göstəricilərindən biri idi. Hansı ki, Vətən müharibəsinə qədər olan gənclər siyasətini dəyərləndirmiş olsaq görəcəyik ki, ölkə başçısının da vurğuladığı kimi Vətən müharibəsində bütün nəsillərin nümayəndələri iştirak etdi. Lakin əsas missiyanı məhz cənab Prezident İlham Əliyevin prezidentliyi dövründə yetişmiş müasir Azərbaycan gəncləri yerinə yetirdi. Bu bir daha onun göstəricisidir ki, ölkədə gənclər siyasəti uğurla həyata keçirilib. Hansı ki, 44 günlük Vətən müharibəsində heç kim geriyə baxmadı. Yalnız bir məqsəd var idi ki, torpaqlarımızı işğaldan azad edək. Hazırda gənclərin üzərinə yenə də böyük missiyalar düşür.

Gənclərin missiyası Vətən müharibəsindəki Zəfərlə yekunlaşmır. Ölkədəki gənclər siyasəti ilə bağlı ümumi dəyərləndirmə aparsaq Vətən müharibəsinə qədər və Vətən müharibəsindən sonra olmaqla iki hissəyə ayırmaq olar. Vətən müharibəsinə qədər bizim əsas missiyamız torpaqlarımızın işğaldan azad olunması üçün səfərbər olmaq, gəncləri vətənpərvər ruhda yetişdirmək və digəri ümummilli maraqlar idi. Vətən müharibəsindən sonra təbii ki, gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi istiqamətində daha da böyük işlər həyata keçirilib. Bununla da paralel olaraq müasir Azərbaycan gəncinin əsas missiyasından biri də Qarabağımızın dirçəldilməsidir. Bu prosesdə Azərbaycan gəncləri fəal iştirak etməlidir. Bundan əlavə biz təhsilimizi artırmalı, bilik və bacarıqlarımızı inkişaf etdirməli, ölkəmizin inkişafı naminə birgə fəaliyyət göstərməli və Azərbaycan gəncliyi olaraq daha böyük uğurlar əldə etməliyik”.

**”Regional İnkişaf” İctimai Birliyinin əməkdaşı, Prezident mükafatçısı Səyyarə Gülaliyeva:** ”2 fevral 2022-ci ildə cənab Prezident İlham Əliyevin Sərəncamına əsasən ”Gənc-



lər üçün Prezident Mükafatı” ilə təltif olunan gənclərdən biri də mənəm. Bu yüksək etimada layiq görüldüyüm üçün çox qürurluyam və buna görə cənab Prezidentə təşəkkür edirəm. Bu mükafatı dövlət başçısının şəxsən özündən qəbul etmək isə daha böyük həyəcan və qürurverici bir hadisə idi. Düşünürəm ki, bu Forum mənim gənclik həyatımdan ən əlamətdar bir tədbir kimi xatirimdə qalacaq.

Çalışacağam gələcək fəaliyyətimdə də bu etimadı hər zaman doğrulldum, qazandığım bilik və bacarıqları, təcrübələri ölkəmizin inkişafı istiqamətində sərf edim. Gənclər gününün 25-ci ilinə həsr edilmiş Forum nəinki iştirakçı gənclər üçün, bütün Azərbaycan gəncliyi üçün stimul mənbəyi oldu. İnanıram ki, bundan sonra hər bir Azərbaycan gənci görüşdə cənab Prezident tərəfindən səsləndirilən dəyərli fikirləri rəhbər tutaraq inamla və daha həvəslə fəaliyyət göstərəcəkdir.

Qeyd edim ki, mən bakalavr təhsilimi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında almışam. Elə tələbəlik illərindən ölkəmizdə gənclər üçün yaradılan böyük imkanlardan istifadə edərək bir çox yerli və xarici layihə və tədbirlərin iştirakçısı olmuşam. 2018 -ci ildən isə könüllü olaraq ”Regional İnkişaf” İctimai Birliyinə qoşuldum. Göstərdiyim ictimai fəallığın nəticəsi olaraq təhsilimi başa vurduqdan sonra əməkdaş olaraq ”Regional İnkişaf” İctimai Birliyində çalışmağa başladım. Bu mənim üçün böyük bir şans idi. Bir gənc kimi ”Regional İnkişaf” İctimai Birliyində istər könüllü, istərsə də əməkdaş olaraq iştirak etdiyim yerli və beynəlxalq layihələr, tədbirlər gələcək karyeram üçün mənə bir çox faydalı təcrübələr qazandırıb.

2020-ci ildə RİİB tərəfindən yaradılan fürsətdən istifadə edərək xaricdə təhsil proqramına da müraciət etdim. Hal-hazırda İtaliyada magistr dərəcəsi üzrə təhsil alıram, pandemiya ilə əlaqədar olaraq təhsilimiz onlayn formatda davam edir.

Bu günlərdə ölkə gündəmində olan əsas mövzu gənclərdir. Ümummilli lider Heydər Əliyev 1996-cı il 2 fevral tarixində keçirilən I Gənclər forumundan sonra gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq 1997-ci ildə imzaladığı Sərəncamla tədbirin keçirildiyi günü - Azərbaycan Gəncləri günü elan etmişdir. O vaxtdan bu günə qədər gənclər siyasəti daim dövlətin prioritetləri sırasındadır. Elə ”Regional İnkişaf” İctimai Birliyinin əsas fəaliyyət istiqamətlərindən biri də ölkənin mədəni, sosial həyatında gənclərin məşğulluğunu təmin etmək, layihə və proqramlar həyata keçirmək, dövlət tərəfindən gənclər siyasətinə və bu qəbildən olan tədbirlərə öz dəstəyini göstərməkdir. ”Regional İnkişaf” İctimai Birliyi davamlı olaraq region gənclərinin şəxsi inkişafları üçün layihələr həyata keçirir, proqramlar hazırlayır, gənclərin ictimai nəzarət proseslərinə cəlb edir. Mən də fəaliyyətə başladığım dövrdən bu layihələrin fəal iştirakçısı və təşkilatçılarından olmuşam. Təbii ki, gənclərlə işləmək həm maraqlı, həm də öyrədici bir təcrübədir.

Bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır. Bu, böyük xoşbəxtlikdir ki, biz müstəqillik dövrünün, qüdrətli Azərbaycanın, qalib xalqın gəncləriyik. Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir. Bu imkanları bizə yaratdığına görə gənclər adından cənab Prezident İlham Əliyevə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm”.

**Gənclər Təşkilatları Milli Şurasının sədri, Prezident mükafatçısı Azər Əliyev:** ”Xüsusuilə vurğulamaq istərdim ki, bu formatda keçirilən görüş kifayət qədər təqdirəlayiqdir. Forumda onlarla gəncin sualı birbaşa Prezident tərəfindən cavablandırıldı. Bu cavablar sırf cənab Prezidentin zəngin təcrü-




bəsinə söykənərək dediyi fikirlər idi. Bu cavablar gənclərimiz üçün yol xəritəsi oldu. Müəyyən mənada gənclərimizin fikirləri aydınlandı. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlətin gənclər siyasətinin layiqli davamçısı Azərbaycan Prezidenti, gənclərin dostu cənab İlham Əliyevdir. Bu gün bütün gənclərimiz dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub. Belə bir mükafatı alacağımı heç vaxt düşünməzdim. Çox qürurluyam və sevincliyəm ki, cənab Prezident tərəfindən Gənclər mükafatına layiq görülmüşəm. Mükafatın birbaşa cənab Prezident tərəfindən təqdim olunması böyük bir qürurdur”.

**”AzAstro” Texnologiyaları MMC-nin həmtəsisçisi və icraçı direktor müavini, Prezident mükafatçısı Suad Muradov:** ”Azərbaycan gəncliyi zənnimcə çox hədəfyönlü, məqsədyönlü şəxslərdən ibarətdir. Ümumilikdə Azərbaycanda gənclik arasındakı rəqabət mühiti demək olar ki, xüsusən sosial sahədə formalaşıb. İstərdik ki, texnologiya sahəsində də bu rəqabət artsın. Ümumiyyətlə universitetlərdə bu sahə



üzrə proqramların keçirilməsi çox gözəl ola bilərdi. Çünki mühəndislik günümüzün ən önəmli sahələrindən biridir. Bizim şirkətimizin də bu baxımdan korluq çəkməsi gənclərimizin hələ bu sahəyə tam şəkildə hazır olmamasından irəli gəlir”.

Süni intellekt üzrə mütəxəssis, Prezident mükafatçısı Əliqənbər Xəlilli: ”Cənab Prezident tərəfindən elm sahəsi üzrə mükafatlanmağım çox böyük motivasiya oldu. Bundan əlavə ətrafımda olan gənclər də bu hadisədən böyük motivasiya qazandılar. Çünki bu zəhmətlərin dövlət tərəfindən qiymətləndirilməsi hər kəs üçün böyük inam və motivasiyadır. Öz sahəm üzrə əminliklə deyə bilərəm ki, Azərbaycanda çox savadlı gənclər var. Hazırda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ciddi planlar üzrə işləyir. Bu planlar savadlı gəncləri üzə çıxarmaq və onlara dəstək olmaqdan ibarətdir. Düşünürəm ki, Azərbaycan növbəti iki ildə öz məhsullarını bu sahə üzrə dünyaya çatdıra biləcək. Bu bizim üçün çox önəmlidir. Çünki bu sahə yeni inkişaf edir. Azərbaycan da bu sahədə öz sözünü deyəcək. Çünki Azərbaycan gəncləri çox savadlıdır”.

”Baku Chamber Orchestra” kamera orkestrinin artisti, Prezident mükafatçısı Orxan Hüseynov: ”Bu yaşıma qədər çəkdiyim bütün zəhmətin ölkə Prezidenti tərəfindən qiymətləndirilməsi, bu mükafata layiq görülmək sözlə ifadə olunmayacaq dərəcədə gözəl hissdir. Şəxsən mənə bundan sonra daha əzmli bir şəkildə daha əmin, daha həvəsli çalışmağıma çox qüvvətli təkandır. Digər gənclərə zəhmətlərinin, əməklərinin daim diqqət mərkəzində olacağına örnəkdir.

Düşünürəm ki, müstəqilliyimizin bərpasından sonra Azərbaycan gəncliyi öz üzərinə düşən ağır məsuliyyəti, vəzifələri çox yaxşı anlamış və qarşıya qoyulan hədəflərə doğru irəliləyərkən çox əzimli, bilikli, hazırlıqlı, təcrübəli, vətənpərvər bir mövhum olaraq formalaşıb. Bu, dövlət rəhbərliyinin apardığı məqsədyönlü siyasət nəticəsində mümkün olub. Gənclər üçün xüsusi dövlət proqramları yaradılıb.

Ölkəmizdə gənclərin keyfiyyətli təhsil almaları, özlərini inkişaf etdirmələri üçün zəruri şərait yaradılıb, xüsusi fərqlənən gənclərin dövlət hesabına xaricdə təhsil almaları üçün xüsusi proqramlar hazırlanıb. Gənclərimizin motivasiyası üçün xüsusi mükafatlar, prezident təqaüdü təsis olunub. Azərbaycanda çox sayda beynəlxalq əhəmiyyətli forumlar, konfranslar, festivallar və s. keçirilir və bu tədbirlərin hər birində gənclərin iştirakına xüsusi imkan yaradılır və önəm verilir. Hazırda Azərbaycan gənclərinin önündə rəngarəng perspektivlər, böyük imkanlar və yeni hədəflər var. Gənclərimizin gələcəyinin parlaq olduğuna inanıram”.

***Arzu Qurbanzadə***

# Azərbaycan çoxkonfessiyalı və etnik qrupların birgə yaşadığı məkandır

## İlham Əliyev: "İkinci Qarabağ müharibəsində bütün xalqların nümayəndələri bir əsgər kimi vuruşdular, qan tökdülər, şəhid oldular"

Azərbaycandakı multikultiralizm və tolerant mühit mövcud dəyərlərimizə əsaslanır. Müxtəlif xalqların adət-ənənələrinə, dininə hörmətlə yanaşma xalqımızın milli keyfiyyəti olmaqla yanaşı, humanizm dəyərlərinə, birgəyaşama mədəniyyətinə söykənir. Etnik qrupların sülh şəraitində yaşaması, bərabərhüquqlu fəaliyyətinə yaradılan zəmin multikulturalizmin Azərbaycan modelinin formalaşdığının göstəricisidir. Bu gün ölkəmizin demək olar ki, bütün ərazisində qeyri-xalqların nümayəndələri qarşılıqlı anlaşma və dialoq şəraitində vahid bir ailə kimi yaşayır və milliyyətindən asılı olmayaraq hər kəs bərabərhüquqludur. Humanizm prinsiplərinə əsaslanan ölkəmizdə insan ləyaqətinə xələl gətirən, ona zidd olan dinlərin yayılması və təbliğinə imkan verilmir. Mövcud qanunlar və mövcud mühit ölkəmizdə xristianların, yəhudilərin, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələrinin birgə sülh və əmin-amanlıq şəraitində yaşamasına dəlalət edir. Fevralın 2-də Bakıda keçirilən Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan həmişə çoxmillətli, çoxkonfessiyalı diyar olub və bu da bizim ənənəmizdir: ”Əsrlər boyu müxtəlif xalqlar burada yaşamış, yaratmış, qardaş olmuşdur, bu gün də belədir. Multikulturalizm termin kimi yenidir, amma anlayış kimi bu, həmişə olub və həmişə olmalıdır. Mənim də sizə sözüm odur ki, siz bu dəyəri daim qoruyun. Çünki bizim gücümüz birliyimizdə və müxtəlifliyimizdədir. Azərbaycan çoxkonfessiyalı, bir çox etnik qrupların birgə yaşadığı unikal bir məkandır. Bu, böyük sərvətimizdir. Mən bunu yenə də deyirəm, sadəcə, xoş söz demək naminə demirəm”. Paytaxt Bakıda, Qubada, Zaqatalada, Qusarda, Qaxda, İsmayıllıda və digər yerlərdə müxtəlif xalqların necə sülh, dostluq şəraitində yaşadığı diqqətdən yayınmır. Hər bir məkanda etnik qrupların icmaları, mədəniyyət mərkəzləri, öz etiqad və ayinlərini yerinə yetirmək üçün olan ibadətgahlar və s. fəaliyyətdədir ki, ölkəmizə gələn qonaqlar bunu yüksək dəyərləndirirlər.



### “DƏMİR YUMRUQ”, SADƏCƏ, GÜC DEYİL, BU, BİRLİKDİR”

Əlbəttə ki, bu gün müxtəlif dövlət qurumlarında qeyri-xalqların nümayəndələri təmsil olunur, ölkəmizin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayırlar. Qarabağ uğrunda gedən döyüşlərdə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri həmrəy oldular. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda müharibədə iştirk etdilər. Azərbaycan vətəndaşı olaraq bir yumruq altında birləşdilər və silaha sarıldılar. ”Mən daxilən 100 faiz buna əminəm ki, ancaq birlikdə, bütün xalqların birgə yaşaması bizi uğura, qələbəyə gətirəcək və gətirib”, - deyən Cənab Prezident qeyd edib ki, İkinci Qarabağ müharibəsində bütün xalqların nümayəndələri bir əsgər kimi vuruşdular, qan tökdülər, şəhid oldular. Vətən uğrunda, Qarabağ uğrunda, Azərbaycan uğrunda vuruşdular. Bu Qələbə və bu müharibə Azərbaycanda yaşayan bütün xalqları daha da birləşdirdi. ”Dəmir yumruq”, sadəcə, güc deyil, bu, birlikdir. Bizdə bu gün olan birlik, hesab edirəm ki, hər bir ölkə üçün, multikonfessional və çoxmillətli ölkə üçün nümunə ola bilər. Siz gənclər, bax, bu ideyaları qorumalısınız. Çünki bu siyasətin uğurlu olması təkcə dövlətdən asılı deyil, hər bir vətəndaşdan asılıdır. Hər bir vətəndaş öz davranışı ilə bu ideyaları tərənnüm etməlidir. Belə olan halda, Azərbaycanda yaşayan bütün xalqlar, Azərbaycan vətəndaşları daim sülh şəraitində, əmin-amanlıq, qardaşlıq şəraitində yaşayacaqlar”.

### “AZƏRBAYCAN SİYASƏTİ BUNDAN SONRA BU İSTİQAMƏTDƏ APARILMALIDIR VƏ APARILACAQDIR”

Amma Ermənistan isə monodövlətdir. Burada hökm sürən vəziyyət erməni xislətini bir daha ortaya qoymuş olur. ”Onlar hesab edirdilər ki, bu, onların üstünlüyüdür” - deyən Cənab Prezident qeyd edib ki, hətta onların rəhbərləri və onların ictimai fəalları müharibədən, İkinci Qarabağ müharibəsindən əvvəl deyirdilər ki, Ermənistanın bir üstünlüyü var ki, burada ancaq ermənilər yaşayır, Azərbaycanda isə müxtəlif xalqlar yaşayır. Onların çirkin təbliğatı ona yönəlmişdi ki, əgər müharibə başlayarsa, burada qatma-qarışıq olacaq, xalqlar bir-birinin üzünə duracaq. Amma nə oldu? Yaşayan bütün xalqlar bir adam kimi durdular ayağa, sinələrini qabağa verdilər, düşməni təpiklə qovdular bizim torpağımızdan. Bir daha göstərdik ki, bax, bu yetişən nəsil və ənənələr nə deməkdir Bir daha demək istəyirəm, bax, biz, hər birimiz bu dəyəri qorumalıyıq və Azərbaycan siyasəti bundan sonra bu istiqamətdə aparılmalıdır və aparılacaqdır”.

Azərbaycanda onlarla müxtəlif dini qurum, birlik və icmaların fəaliyyətdə olması ölkəmizdə hökm sürən bu mühiti əsaslandıran amillər sırasındadır. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, ”Yeni həyat” Xristian İncil dini icması, Bakı şəhəri ”Molokan ruhani-xristian” dini icması, Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və digər qurumlar ölkəmizdə sərbəst və azad şəkildə fəaliyyət göstərirlər. Bu bir daha ona əsaslanır ki, molokanlar, yəhudilər, tatlar, saxurlar, ləzgilər üçün Azərbaycanda geniş imkanlar yaradılıb. Qeyri-xlqların yaşadığı Krasnaya Sloboda, İvanovka kimi kəndlərə daima dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir. Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir.

***Nəzakət ƏLƏDDİNQIZI***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Oğurluq “verilişlərə” STOP:

## Malaxovdan, Zühal Topaldan KOPYALAMAYA SON!!!

**Jurnalistika yaradıcılıqdır, jurnalistika ilhamdır, jurnalistika öz beyin məhsulunu ağ vərəqə köçürmək, öz düşündüklərini səni oxuyan və dinləyən insanlara məntiqlə, mənalı sətirlərlə ötürmək sənətidir. Axı jurnalistika başqalarının layihələrini, ideyalarını kopyalamaq, yazılarını oğurlamaq sənəti deyil, qəti!**

Amma təəssüf ki, illər boyu mediamızda qəlib cümlələrdən ibarət standart ”jurnalistika” milli mətbuatımız üçün qəbirqazan funksiyası daşıyıb, yaradıcı qələmləri məzara yollamaqla məşğul olub. Bu, bir həqiqətdir ki, cəmiyyətimizdə yaradıcı, öz fikri olan jurnalist yazısı can almağa gələn əzrayıl qiyafəsində görünüb, ona qarşı qorxu və xoflu münasibət olub. Nədən qorxublar yaradıcı jurnalistikadan, güllə kimi hədəfə dəyən sətirlərdən?

Bir çoxları boğaza qədər cinayət və korrupsiya bataqlığına bulaşdıqları üçün, bəziləri o yazıları həzm etmək şüuruna sahib olmadıqları üçün və tam əksəriyyəti isə içi boş başlarını salamat saxlamaq üçün YARADICI JURNALİSTİKANI məzara gömüb, üstündən də salavat çeviriblər. Əvəzində bu gün də tüğyan edən, amma yeni formada milli mətbuatı gənə kimi gəmirib bitirən ”REKET jurnalistika”ya meydan açdılar, bədənini satışa çıxaran bir sıra ləçərlərə və gədə-güdələrə ”jurnalist vəsiqəsi” verib saldılar ölkənin canına. Bu addım həm də ciddi, peşəkar jurnalistikanın sıradan çıxarılması və HÖRMƏTDƏN SALINMASI planı idi. Plan elə vüsətlə və uğurla alındı ki, peşəkar mətbuatı birdəfəlik qurutdu, əsl JURNALİST imicini yerin dibinə soxdu. Məqsəd o idi, o da alındı, vəssalam. İndi də qeyri-peşəkar efirlər, oğurluq ”verilişlər” at oynadır telekanallarda.

Ən ”prestij” telekanallarda Andrey Malaxovun, Zühal Topalın verilişlərinin ”kopyalanması”, ”aparıcıların” da öz saç düzümlərini onlara oxşatması kimi iyrənc və təlxək ”yarış” başlayıb. A.Malaxova bənzəmək üçün yalandan özünü elit və intellektual aparıcı kimi gözə soxmağa çalışan, Z.Topalın verilişini kənddəki kino klubda məşq edən dərnək formasında təqdim edənlər bilirsiniz nəyin ”məhsuludur”? - milli mətbuata, yaradıcı jurnalistikaya atılan daşların məhsulu! Axı bizdə gözəl bir misal var: ”Nə əkərsən, onu da biçərsən”.

İndi mətbuatı bu cür rəzillikdən, pisliklərdən təmizləmək lazımdır. Amma bu məsələ olduqca çətindir. İllərin oturuşmuş pislikləri bir anda heç zaman təmizlənməz. MEDİA qurumuna ən çox təşəkkür ona görə edilməlidir ki, illərin bataqlığında çapalayan mətbuatı bu çirkabdan qurtarmaq üçün olduqca çətin bir missiyaya başlayıb. İllərin üfunətini bir neçə ilə təmizləmək olduqca çətindir, burası məlumdur. Amma bu üfunəti qara yara kimi mətbuatdan silib aparmaq həm də tarixi missiyadır, şərəf məsələsidir.

Bütün bu pislikləri, yoxa çıxan yaradıcı jurnalistikanı ancaq xəyallarımızda təsəvvür edən zaman 90-cı illərin mətbuatı üçün indi sino gedirik. Nədən? - çünki sözün əsl mənasında yaradıcı, əl-əl oxunan və özünə sayğı qazanan ciddi mətbuat hər zaman xiffət çəkici olur, türklər demişkən özlənməli olur. Qeyri-peşəkarların, istedadsızların efirlərdə, qəzet və saytlarda meydan suladığı bu günlərdə, xüsusilə, son on-on beş ildir ki, milli mətbuatımız bütün yaradıcılıq dəyərlərini, yeniliyə aparan qələm tərzini məzara göndərib. Əvəzində əxlaq və mədəniyyət yoxsulu olan, bakirəliyi ilə birlikdə efir tərbiyəsindən də məhrum olan həyasız ləçərlərin, cinsi orintasiyasını dəyişib küçə səviyyəli ”ağıl və tərbiyəsi” ilə gələcəyimizi məhv edən qulağısırğalı, ”petux” ləqəbli cinsi azlıqların at oynatdıqları efirlər adamın gözünə girir. Efirlər belələri ilə doludur, özü də əcaib formada. Təsəvvür edin ki, bu cinsi azlıq gədəsi milli kişilikdən dəm vurur, ləçər ”aparıcı” əxlaqdan mozię oxuyur və onlara tamaşa edən yeniyetmə və gənclik də bu parazitləri örnək kimi həzm edirlər. Bu cinsi azlıq, bu həyasız ləçər 100 minlik bahalı avtomobillərdə gəzir, komfortlu villalarındakı alt paltarlarını efirlərdə gözə soxur, onları izləyən gənclərə də əsl rahat həyatın yolunun bu cür ”yaşayışdan” keçdiyini təqlin edir, o gənclərin beyinlərinə dürtüşdürürlər. Ən böyük ölümcül təhlükə budur.

Bu sözlərimi unutmayın: Qarabağı 30 ildən sonra qanımızla, canımızla geri qaytara bildik, amma məhv olan əxlaqımızı və milli kimliyimizi bir də əsla!

# “Azərbaycanın mesajları Rusiya auditoriyasına çatdırıldı”

**“Yanvarın 30-da ”Rossiya 24” telekanalında yayımlanan ”Hakimiyyət formulu” verliş Prezidentimiz İlham Əliyev ilə bağlı idi. Verilişi bir çox insan izləyib və verilişdə maraqlı məqamlar çox idi”. Bunu SİA-ya açıqlamasında siyasi ekspert Asif Nərimanlı deyib.**

Asif Nərimanlı qeyd edib ki, verilişin aparıcısı TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Azərbaycanı çox yaxından tanıyan şəxsdir: ”Mixail Qusman hazırladığı verilişdə xüsusən Azərbaycanın müharibədən sonrakı dövrü əks olunub. Verilişdə Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra regionda baş verən dəyişiklik ön plana çıxarılmışdı. Təbii ki, Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin dövründə Azərbaycanda baş verən inkişafın nəticəsində torpaqlarımız işğaldan azad oldu. Bu nüanslara verilişdə yer verilmişdi. Burada təkcə torpaqlarımızı azad etməyimiz əks olunmamışdı, eyni zamanda Azərbaycanın iqtisadi və xarici siyasətinin uğurlarına da verilişdə yer verilmişdi. Burada ən maraqlı məqamlardan biri Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycan Prezidenti İlham Əliyevin 60 illik yubileyinə həsr edilməsi idi.



Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr çox ciddi uğurların əldə edildiyi dövrdür. Verilişin özünün daimi auditoriyası var. Bu auditoriyaya Azərbaycanın inkişafı və müharibədən sonra gördüyü işlər göstərildi. Müharibədən sonrakı reallıqlar və Prezident İlham Əliyevin verdiyi mesajlarda verilişdə əhəmiyyətli rola malikdir. Verilişdə eyni zamanda Rusiya Azərbaycan münasibətləri də əks olunmuşdu. Regiondakı əsas ölkələrdən biri Rusiyadır. Verilişdə Azərbaycanın mesajlarının Rusiya auditoriyasına çatdırılması özündə çox böyük əhəmiyyət kəsb edir”.

***Qönçə Quliyeva***

# Gənclər dövlətimizin gələcəyi üçün təməl daşlarıdır




2 fevral Gənclər Günü 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə təsis olunub. Bu, Heydər Əliyevin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsidir. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. 1996-cı ildən başlayaraq Azərbaycanda Gənclər günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başlayıb. Bu gün Azərbaycan gəncləri bütün beynəlxalq platformalarda Azərbaycanı qürurla təmsil edir.

**Gınclər Günü münasibətilə SİA Milli Məclisin Gənclər və İdman Komitəsinin üzvlərinin fikirlərini öyrənib:**

Milli Məclisin Gənclər və İdman Komitəsinin üzvü Vüqar İsgəndərov: "Bu gün öz uğurlarına görə regionun iri dövləti olan Azərbaycan eyni zamanda mütərəqqi gənclər siyasəti ilə dünyada fərqlənir. Ölkəmiz dünyada az ölkələrdən biridir ki, təqvimində gənclərlə bağlı xüsusi bir gün var. Gənclərimiz bu gün ölkəmizin həyatında əhəmiyyətli mövqelərdə öz əməlləri ilə fərqlənirlər və onlara bu gün dövlət tərəfindən xüsusi diqqət və qayğı var. Yaradılan əlverişli mühit, diqqət və qayğıdan güc alan Azərbaycan gəncliyi ötən müddətdə uğurlu inkişaf yolu keçib. Təbii ki, burada Ulu Öndər Heydər Əliyev tərəfindən ısası qoyulan və cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu gənclər siyasəti əsaslı rol oynayır. 1997-ci ildə Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə 2 fevral Gənclər Günü kimi qeyd edilir. Burada Gənclər və İdman Nazirliyinin yaradılması, Gənclər Fondunun formalaşdırılması, Prezident Administrasiyasında gənclərlə bağlı şöbənin yaradılması, gənclər haqqında dövlət proqramlarının qəbul edilməsi, gənclərin bütün sahələrdəki inkişafı ümumilikdə bütün bunların hər biri dediklərimizin əyani sübutudur. 44 günlük Vətən müharibəsində gənclərimiz bunların hər birini xüsusi olaraq göstərdilər. Yəni Ali Baş Komandanın rəhbərliyi altında şanlı ordumuz 44 gün ərzində düşmənin başını əzərək torpaqlarımızı işğaldan azad etdi. Həmin şanlı ordumuzun tərkibinin 90%-i gənclərdən ibarət idi. Azərbaycan gəncləri Şuşa fatehləri, Qarabağ fatehləri kimi tarixdə yadda qalacaqlar. Bu, sözün əsl mənasında Azərbaycan gəncliyinin dünyada öz torpağını necə sevməyi, necə vətənpərvər olmağı göstərdi. Təbii ki, bu gün gənclərimiz vətənpərvər, təhsilə meyillidir. Təkcə müharibə meydanında yox, dinc quruculuq sahələrində də gənclərimizi görürük. Bilik olimpiadalarında, beynəlxalq simpoziumlarda Azərbaycan gəncləri ölkəmizi şərəf və uğurla təmsil edirlər. Bütün Azərbaycan gənclərini 2 fevral Gənclər günü münasibətilə təbrik edir, onların gələcək fəaliyyətlərində uğurlar arzu edirəm".



**Milli Məclisin Gənclər və İdman Komitəsinin üzvü Müşfiq Cəfərov:** "Azərbaycanda müstəqillik illərindən sonra həyata keçirilən gənclər və idman siyasətinin prioritet istiqaməti gənc nəslin fiziki-mənəvi potensialının möhkəmləndirilməsinə xidmət edən kompleks tədbirlərin gerçəkləşdirilməsidir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu strateji xətti uğurla davam etdirən Prezident İlham Əliyev daim gənclərə imkanları çərçivəsində geniş meydan verilməsinə, gənc nəslin zəruri tələbat və ehtiyaclarının ödənilməsinə çalışmışdır. Dövlət başçısının bu çevik sosial zümrəyə diqqət və qayğısı Ümummilli Lider Heydər Əliyevin möhkəm təməllərlə əsasını qoyduğu gənclər siyasətinin məntiqi davamıdır. Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə 2007-ci ilin "Gənclər İli" elan olunması da ölkəmizdə gənclər siyasətinin ardıcıl və sistemli xarakter daşıdığını təsdiqləyir. Bu, bir tərəfdən gənclərə daha geniş şərait yaratmaq, digər tərəfdən onların potensialından dövlət quruculuğu prosesində maksimum istifadə etmək məqsədi daşıyır. Xüsusi olaraq qeyd edim ki, bir çox MDB və dünya dövlətlərində Gənclər və İdman Nazirliyi adlı hansısa qurum yoxdur. Azərbaycanda 1994-cü ildən belə bir nazirliyin mövcud olması və gənclərlə iş sahəsində uğurla fəaliyyət göstərməsi təsdiqləyir ki, respublikamızda gənclər və idman siyasəti daim diqqət mərkəzindədir.



Dövlət strukturunda rəhbər vəzifələrin təxminən 70 faizini gənclər təşkil edir. Hazırda daha çox müasir bilikləri və yeni informasiya texnologiyalarını mənimsəmiş gənclərə ehtiyac var. Mən deyə bilərəm ki, sevindirici haldır ki, müasir Azərbaycan gəncliyi beynəlxalq aləmdə layiqincə təmsil olunur, Respublikamız getdikcə beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilir.

Gənclik millətin gələcəyinin, inkişafının təməl daşıdır. Millətin mövcudluğu üçün sağlam gənclik vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların hazırlığından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır.

Ölkə başçısının gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsini hər zaman əsas hesab edib.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində zəruri tədbirlər həyata keçirilir. Gənclər dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışıblar. Bunun ən gözəl nümunəsi olan 44 günlük Vətən müharibəsini qeyd edə bilərik. Gəncliyimiz düşmən qarşısında canını sipər etdi, torpaqlarımızı əsrətdən qurtardı.

Sonda qeyd edim ki, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu siyasət də öz növbəsində sağlam və intellektual nəslin formalaşmasına xidmət edir".

**Milli Məclisin Gənclər və İdman Komitəsinin üzvü Şahin İsmayılov:** "Heç kimə sirr deyil ki, 1991-ci ildə müstəqilliyimizin bərpasından sonra Ulu Öndərin hakimiyyətə gəlişinə qədər dövlət hakimiyyətinin strukturlarının qurulmasında ciddi problemlər mövcud idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ildə Prezident seçildikdən sonra bütün taleyüklü məsələlərin həllinə düşünülmüş şəkildə start verdi. Gənclər siyasəti də Ulu Öndərin diqqətindən yayınmamışdı. Gənclərin inkişafı üçün görülən bütün işlər ümumilikdə ölkənin hərtərəfli inkişafının təmin olunması üçün potensial kadr bazasının hazırlanması və vətənpərvər gənclərin, yetişdirilməsinə istiqamətlənmişdi. Ulu Öndər gəncləri əhatə edən işlərin görülməsi ilə yanaşı özünün müdrik tapşırıqlarını da ifadə etmişdi. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" deyə qeyd edən böyük azərbaycanlının bu sözləri Azərbaycan gənclərinin qarşısında duran vəzifələri müəyyən edirdi. Gənclər bu tapşırığın öhdəsindən gəldi və gəlməkdədir. Bugünkü gənclər siyasəti Ulu Öndərdən Azərbaycan dövlətinə və Azərbaycan xalqına miras qalan çoxsaylı işlərdən biridir. Ulu Öndər Heydər Əliyevin yaratdığı müasir Azərbaycanı uğurlu gələcəyə aparan Prezident İlham Əliyev də gənclərlə iş sahəsində işlərin görülməsini xüsusi diqqətdə saxlayır. Möhtərəm Prezident gənclərə müraciətində,qeyd etdi ki, "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Bu sözlər gənclərimiz üçün böyük motivasiya olmaqla onların davamlı fəaliyyətini stimullaşdırıb.



Bu gün təntənəli şəkildə qeyd etdiyimiz Gənclər Gününün də tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər 1995-ci ildə gənclər forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü və 1996-ci ilin 2 fevral tarixində 1-ci Gənclər Forumu baş tutdu. 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin imzaladığı müvafiq sərəncamla Azərbaycan Gənclərinin Forumunun keçirildiyi tarix - 2 fevral ölkəmizdə gənclər günü kimi qeyd olunmağa başlanıldı. Ondan sonra keçən dövrdə Azərbaycanda hər 3 ildən bir gənclər forumları keçirilir. Forumlarda gənclərimizi maraqlandıran məsələlər müzakirə olunur, qərarlar qəbul olunur. Prezident İlham Əliyevin hakimiyyəti dövründə də gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsi olmuşdur. Gənclər üçün yeni imkanlar yaradılmış, onların hərtərəfli inkişafı üçün dövlət tərəfindən mühüm töhfə verilmişdir. Bu gün hakimiyyət qollarında gənclərlə işləyən ixtisaslaşmış orqanlar mövcuddur. Biz burada xüsusi olaraq Prezident Administrasiyasında Gənclər Siyasəti və İdman Məsələləri şöbəsini, Milli Məclisin Gənclər və İdman komitəsini, Gənclər və İdman Nazirliyini, Gənclər Fondunu göstərə bilərik. Eyni zamanda Azərbaycanda 300-ə yaxın Gənclər sahəsində işləyən Qeyri-Hökümət Təşkilatları fəaliyyət göstərir. Müxtəlif elmi-tədqiqat mərkəzlərində də kifayət qədər sayda gənclərimiz çalışırlar. Biz bu misalları artıra, gəclərimizin uğurları haqqında daha çox danışa bilərik. Təbii ki, bu uğurların əldə olumasında uğurlu dövlət gənclər siyasəti dayanır. Gənclər hər zaman dövlətin diqqətini, xüsusilə prezident İlham Əliyevin dəstəyini hiss edirlər".

**Milli Məclisin Gənclər və İdman Komitəsinin üzvü Cavid Osmanov:** "Azərbaycan müstəqilliyinu bərpa etdikdən sonra ölkəmizdə baş verən siyasi hadisələr, xaotik vəziyyət fonunda Azərbaycan gəncliyi ümumilikdə Azərbaycan xalqı kimi başsız qalmışdı. Ölkəmizdə gənclər heç bir perspektiv görmədiyindən bir hissəsi xarici ölkələrə üz tutmuş, digər bir hissəsi isə müəyyən müəyyən qüvvələr tərəfindən öz siyasi məqsədlərinə çatmaq üçün bir alətə çevrilmişdilər. Azərbaycan gəncliyinə diqqət və qayğı Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdən başlanılmışdır. Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Daha sonra gənclərin birinci forumu keçirildi. Daha sonra Ulu Öndərin fərmanı ilə 2 fevral Gənclər Günü kimi qeyd olunmağa başlanıldı. 2003-cü ildən bu günə kimi cənab Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasətini davam etdirməklə və inkişaf etdirməklə Azərbaycan gəncliyinə daha böyük meydan verdi. Azərbaycan gəncliyi dünyanın ən aparıcı ali təhsil müəssisələrinə təhsil almaq üçün göndərildi, Gənclər Fondu yaradıldı və Azərbaycan gəncliyinə bütün dövlət idarəetməsində qapılar açıldı və bu gün çox yüksək vəzifələrdə, bütün dövlət orqanlarında Azərbaycan gəncliyi təmsil olunurlar. Eyni zamanda müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan gəncliyi öz rəşadətini, öz qorxmazlığını döyüş meydanında da göstərdi və 30 il müddətində işğala məruz qalmış torpaqlarımızı azad etdi. Bu gün Azərbaycan gəncliyi dünyada nümunə göstəriləcək böyük bir təsisata çevrilib".



**Milli Məclisin Gənclər və İdman Komitəsinin üzvü Ramil Həsən:** "Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi və himayəsi ilə 1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əsası qoyuldu. Azərbaycanda gənclərə göstərilən diqqət və qayğı milli və ölkəsinə, dövlətinə bağlı gəncliyin yetişməsi prosesi də məhz o dövrlərə təsadüf edir. Şübhəsiz ki, 1996-cı ildə ilk gənclər forumunun keçirilməsi və 1997-ci ildə Ümummilli Lider tərəfindən 2 fevral Gənclər Günü kimi təsis edilməsi də bu istiqamətdə irəliyə doğru atılmış addımlardan biri idi. Heç də təsadüfi deyildi ki, BMT Dünya Gənclər Gününü 12 avqust olaraq bəyan etməsi 1999-cu ilə təsadüf edir. Bu da Azərbaycanda gənclərə göstərilən diqqət və qayğı ilə bağlı xüsusi bir siyasətin mövcudiyyətini hələ BMT-dən daha öncə başladığının bariz nümunəsidir. Azərbaycan gəncliyi 44 günlük Vətən müharibəsində canlarını fəda edərək, şəhid düşərək, qazi olaraq Azərbaycanın qəlbi olan Qarabağı işğaldan azad etdi. Bütün bu proseslərin içərisində ən önəmli faktor Azərbaycanda milli şüura sahib olan gəncliyin güclü və qüdrətli yetişməsi, ordusuna, dövlətinə sədaqətlə xidmət edən gənclər bu gün ön planda gəlməkdədir. Əlbəttə ki, bu gün biz böyük fəxarət hissi ilə torpaqlarını düşmən tapdağından qurtarmış gənclərin gününü qeyd edirik. Cənab Prezidentin hər dəfə qeyd etdiyi kimi Azərbaycan dövlətinin gələcəyi gənclərdir. Ona görə də bu gün Azərbaycan dövləti gənclərə sərmayə yatırır. Gələcəyin gəncləri dövlətimizin təməl daşlarıdır. Bu gün münasibətlə bütün Azərbaycan gənclərini təbrik edirəm".



**Milli Məclisin Gənclər və İdman Komitəsinin üzvü Şahin Seyidzadə:** "Azərbaycan dövləti nadir ölkələrdəndir ki, burada gənclər siyasəti ilə məşğul olan ayrıca qurum yəni Gənclər və İdman Nazirliyi, gənclər və gənclər təşkilatlarını təşəbbüsünü dəstəkləyən gənclər fondu mövcuddur. Bildiyimiz kimi bu gün 2 fevral Gənclər Günüdür. Bu günün əhəmiyyəti çox böyükdür. Bir çox Azərbaycan gənci bu gün münasibətlə ilin gənci seçildi. Digər tərəfdən bu gün Gənclər Günü ilə bağlı müxtəlif tədbirlər keçirilir. Bütün bunlarla yanaşı müxtəlif qanunlar, dövlət proqramları təsdiq olunub. Sözsüz ki, bütün bunlar çox əhəmiyyətli və vacibdir. Hazırdakı yeni nəsil fərqli xüsusiyyətlərə malikdir. Bütün müxtəlifliyə, dəyişikliklərə baxmayaraq gənclərimiz bu gün vətənpərvər ruhda yetişməkdədir. Bu, gənclərin ən böyük üstün xüsusiyyətlərindən biridir. Bu gün Azərbaycan gənci təhsilli, savadlı, ölkəsinə bağlı bir gənc kimi yetişir. Azərbaycan gənci dövlətin bu günüdür. Bunun ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində Zəfər çalmağımız oldu".



***Arzu Qurbanzadə***

# Kamil peşə, yoxsa yalançı diplomlar?

**Uşağınızın özünə inamlı və uğurlu olmasını, öz potensialını kəşf etməsini, həmyaşıdları ilə münasibətləri inkişaf etdirməsini, öz ayaqları üzərində dayanmasını istəyirsiniz? Əgər belədirsə, uşağınızı sənətlə mümkün qədər tez tanış edin. Türkiyə Statistika Təşkilatının məlumatına görə, Avropanın ən gənc əhalisi olan ölkə Türkiyədir və 0-17 yaş arası uşaqlar ümumi əhalinin 28 faizini təşkil edir. Türkiyə həm də Avropa ölkələri arasında ən çox azyaşlı uşaq əhalisinə malikdir, əhalisinin 8 faizi dörd yaşdan aşağıdır.**









Son 20 ildə aparılan araşdırmalar, uşaqları ən erkən yaşlardan incəsənət fəaliyyətləri ilə tanış etməyin transformativ gücünə işarə edir. Musiqidən rəssamlığa, dramaturgiyadan dizayna qədər müxtəlif sənət sahələri uşaqların bütün duyğularını istifadə edərək kəşflər etdikləri, təbii və kortəbii şəkildə ifadə etdikləri əyləncəli məşğuliyyətlərdir. Kiçik yaşlarından incəsənət fəaliyyətləri ilə tanış olan uşaqlar özlərini daha yaxşı tanıyır, nəyi bəyənib, nəyi sevmədikləri barədə ipucu əldə edir, ətraflarında gördüklərini və yaşadıqlarını bədii fəaliyyətlərlə ifadə edərkən, planlaşdırma kimi idrak bacarıqlarını inkişaf etdirirlər.

## İncəsənət beyin inkişafı üçün hansı rolu oynaya bilər?

Erkən uşaqlıq (0-3 yaş) və məktəbəqədər dövr (4-6 yaş) uşaqların fiziki, koqnitiv və sosial-emosional bacarıqları ən tez mənimsədiyi dövrlər sırasındadır. Neyrologiya



sahəsində son araşdırmalar işığında prof. Jack Shonkoff ilk illəri xüsusi edən bu sürətli dəyişikliyi beynin ətraf mühitin stimullarına daha açıq olması və təcrübələr qarşısında digər dövrlərə nisbətən daha sürətli inkişaf etməsi ilə izah edir. Beynin inkişafının əsasları ən erkən yaşlarda bu təcrübələrlə qoyulur.

## Yeniyetməlik və sənət

İnkişafın digər kritik dövrü olan 12-18 yaşları əhatə edən yeniyetməlik dövrü də bədii cəhdlərlə yüngülləşdirilə bilər. Bu gün qloballaşmanın təsiri ilə kütləvi informasiya vasitələri uşaq və gəncləri dominant mədəniyyətin dəyərləri, məhsulları və obrazları ilə tanış edirsə, incəsənət onların özlərini tanımasına, orijinal tərəflərini kəşf etməsinə, xüsusilə də öz səsini çatdırmasına şərait yaradır.

Müxtəlif məktəbdənkənar fəaliyyətlərlə məşğul olan gənclərin təcrübələrini müqayisə edən araşdırmada gənclərin orkestr, xor, dram, rəqs, yaradıcı yazı kimi ifaçılıq və təsviri sənət proqramlarında özlərinə məqsəd qoyduqları müəyyən edilmişdir. Xüsusən də seminarın sonunda tamaşaçılara təqdim olunacaq əsərin hazırlanması məqsədi uşaqları yaradıcılıq azadlığından daha böyük məsuliyyət hissi ilə və daha səmərəli istifadə etməyə, əzm və səy göstərməyə sövq edir.

Elmi araşdırmalar göstərir ki, məktəbdən kənarda dram və musiqi fəaliyyətlərində iştirak məktəb uğuru və akademik məqsədlərlə əlaqələndirilir. Xüsusilə imkansız ailələrin uşaqları incəsənətə əsaslanan proqramlarda iştirak etdikdə məktəbi tərketmə nisbəti beş dəfə azalır və onların universiteti bitirmək şansları iki dəfə artır.

15-24 yaş arası gənclərin sənətlə o qə-



dər də əlaqəsi yoxdur. Türkiyə Əhali Dərnəyi və Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun 2007-ci ildə apardığı araşdırmaya görə, bu yaş qrupunun ən çox üstünlük verdiyi asudə vaxt fəaliyyətləri dostları ilə söhbət etmək və alış-veriş mərkəzlərinə getməkdir. Kino, konsert və ya alət çalmaq kimi fəaliyyətlərə üstünlük verənlərin nisbəti 20-25% təşkil edir.

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO) incəsənətin uşaq inkişafında oynadığı mühüm rolu vurğulayaraq sosial-iqtisadi vəziyyətindən, qaçqınlıq və mədəni vəziyyətindən asılı olmayaraq cəmiyyətdəki hər bir uşağın universal insan hüququ kimi incəsənətə çıxışının olduğunu müdafiə edir. Ancaq məktəb proqramında rəsm dərslərinin çəkisi getdikcə azaldıqca, xüsusilə imkansız ailələrin uşaqları keyfiyyətli sənət təcrübələrindən məhrum olurlar. Buna görə də məktəb mühitindən kənarda təşkil edilən sənət emalatxanaları uşaqların kiçik yaşlarından incəsənətlə tanış ola bilmələri və sənət vasitəsilə öyrənmə təcrübələri qazanmaları üçün mühüm alternativ öyrənmə mühiti kimi əhəmiyyət kəsb edir.



Uşaqların kiçik yaşlarından incəsənətlə tanış ola bilməsi və sənət vasitəsilə öyrənmə təcrübələri qazanması üçün məktəb mühitindən kənarda təşkil edilən incəsənət seminarları mühüm alternativ öyrənmə mühiti kimi əhəmiyyət kəsb edir. Dünyanın bir çox ölkəsində və Türkiyədə məktəbdənkənar rəsm məşğələləri əsasən bələdiyyələr, gənclər mərkəzləri, xalq təhsil mərkəzləri, uşaq kitabxanaları, qeyri-hökumət təşkilatları, muzeylər kimi ictimai qurum və təşkilatlarda



keçirilir. Fərqli əhatə dairəsi və intensivliyi ilə təklif olunan bu proqramlar fərdlərə mədəni savadlılıq bacarıqlarını təkmilləşdirməklə mədəniyyətə çıxış imkanı verir və incəsənətin geniş auditoriyaya çatmasına şərait yaradır.

Araşdırmalar göstərir ki, uşaqlar və yeniyetmələr onsuz da məhdud olan boş vaxtlarını daha çox ev tapşırıqlarını yerinə yetirmək və televizora baxmaq kimi fəaliyyətlərə sərf edirlər. 2013-cü ildə İstanbulda edilən bir araşdırmada, sənət fəaliyyətlərinə marağın az olmasının səbəbləri soruşulduğunda yaxınlıqda bu cür proqramlar təqdim edən qurumların olmaması iqtisadi səbəblər və uşaqların istəksizliyindən bəhs edilir.

İncəsənət proqramlarına çıxışı və iştirakı təşviq etmək üçün ailələr üçün məlumat və görünmə fəaliyyətləri artırıla bilər. Bu kontekstdə uşaqların planlaşdırma, vaxtı idarə etmə, özünə inam, özünü tanıma və əzmkarlıq kimi bacarıqları sənət vasitəsilə öyrənə biləcəkləri mövzusunda maarifləndirici seminarlar və fəaliyyətlərin təşkili vacibdir.

Xüsusilə az öyrənilən erkən uşaqlıq (0-6 yaş) üçün kitab, nağıl, musiqi, rəqs, oyun və



hekayələri birləşdirən fəaliyyətlər həyata keçirilə bilər. Layihə inkişaf təcrübəsi idrak və sosial cəhətdən daha bacarıqlı 15-18 yaş qrupu üçün film, animasiya, fotoqrafiya, vizual və rəqəmsal dizayn, yaradıcı yazı kimi sənətin müxtəlif sahələrini bir araya gətirən seminarlarda əldə edilə bilər.

## Ailələrin məsuliyyəti nədir?

Tədqiqatlar uşaqların incəsənət vasitəsilə əhəmiyyətli qazanc əldə etdiyini göstərsə də, sənət emalatxanalarını xüsusi istedad tələb edən proqramlar kimi görən və hətta onları məktəb uğuruna əngəl kimi qiymətləndirən ailələrin sayı kifayət qədərdir. Ailələrin bu cür seminarları akademik proqramlar qədər dəyərləndirməsi uşaqların iştirak və davamiyyət nisbətinə çox təsir edir. Bundan əlavə, ailələrin övladlarında sənətə həvəs və maraq oyatmaq üçün məhəllələrindəki proqramları araşdırmaları faydalı olardı. Ailələrin övladlarına təzyiq göstərmədən həvəsləndirilməsi xor, rəqs, teatr və ya rəsm, gil və heykəl sərgiləri kimi şoulara ailə olaraq qatılmaq mədəniyyət və incəsənətə maraq toxumlarının səpilməsini təmin edir.

SİA məsələ ilə bağlı araşdırma apararaq deputat, sosioloq və ekspertlərin fikirlərini öyrənib.

**Milli Məclisin Elm və Təhsil Komitəsinin deputatı Ceyhun Məmmədov fikirlərini bu cür ifadə edib:** "Hesab edirəm ki, bunun bir sıra müxtəlif obyektiv və subyektiv səbəbləri var. Bu daha çox ailələrin özündən asılıdır. Bir gəncin formalaşmasında onun ailəsinin böyük rolu var və ailə özü övladını təhrik etməlidir, ona təbliğ etməlidir. İncəsənətə, rəsmə, idmana, musiqiyə maraq ailədən başlayır. Yəni, ailə özü bu təbliğatı aparmalıdır.



Eyni zamanda bu istiqamətdə məktəblərdə təbliğatın aparılmasına ciddi ehtiyac var. Məktəblər yönləndirilməlidir. Kütləvi informasiya vasitələrində də bu təbliğatı biz aparmalıyıq. Yəni, ümumən gənclər arasında bu istiqamətdə çox ciddi işin aparılmasına ehtiyac var. Dünən cənab Prezident gənclərlə görüşündə bir çox vacib məsələlərə toxundu. Yəni, bu məsələ belədir ki, gənclər mütləq yönləndirilməlidir, onlara istiqamət verilməlidir. Bunun üçün hesab edirəm ki, biz tədbirlər planı hazırlamalıyıq. Sistemli iş getməlidir. Aidiyyəti qurumlar tərəfindən davamlı təbliğat aparılmalıdır. Bu istiqamətdə ardıcıl işlər görülməlidir ki, biz bu istiqamətdə qarşımıza qoyduğumuz məqsədlərə, hədəflərə nail ola bilək.

Təəssüf ki, son vaxtlar ailələr hamısı çalışır ki, onların övladları yalnız ali təhsil alsın, diplomlu olsun. Yəni, hesab edirəm ki, heç də hamının ali təhsilli olmasına ehtiyac yoxdur. Əgər bir gəncin, bir şagirdin buna marağı, həvəsi yoxdursa onu buna təhrik etmək heç bir effekt verməyəcək. Ona görə hesab edirəm ki, indiki dövrdə bir sıra peşələrin də yaxşı biliciləri onu yaxşı mənimsəyənlər yaxşı da yaşayırlar. Ona görə bunu biz nəzərə almalıyıq, elə formada istiqamət qurmalıyıq ki, gələcəkdə gənclərimizin bu sahəyə olan marağının davamlı olmasına nail ola bilək. Əks halda getdikcə maraq daha da azalacaq, daha da çətinliklər olacaq. Ona görə biz bunun üçün müəyyən addımlar atmalıyıq ki, qarşımıza qoyduğumuz hədəf və məqsədlərə nail ola bilək".

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "21-ci əsr özü ilə yeni texnologiyalar, həyat tərzi, xidmət sahələri gətirdi. Bu sahələr əvvəlki peşələrin bir qisminin aradan çıxmasına səbəb oldu. Bildiyimiz kimi, 20-ci əsr mexanika və avtomatlaşdırma əsri idi. 20-ci əsr həm də internet, sosial şəbəkələr, şəbəkələşmə və süni intellekt əsridir. Bunun da özünəməxsus dəyərləri və sahələri yaranıb. İndi isə ən çox xidmət sahələri inkişaf edib. Yəni, restoran, turizm, nəqliyyat, logistika və s. Gənclərin incəsə-



nətə, kreativ sahələrə meyli get-gedə azalmaqdadır. Çünki onlar görür ki, incəsənətin klassik-akademik formalarından pul qazanmaq mümkün deyil. Gənclər yaşlı nəslə nisbətən daha maksimalist olurlar. Onlar, "İndi olsun, tez olsun və nə isə qazanım" prinsipi ilə yaşayırlar. Bu bütün dünyada belədir, o cümlədən də Azərbaycanda.

Şou-biznes və mədəni biznesin müxtəlif yeni sahələri yaranıb. Fikir versəniz, orada iri həcmli böyük bədii əsərlər yox, tez başa gələn kliplər və filmlər daha tez yayılır. Gənclər bunlara daha çox maraq göstərir. Onlar pul qazanmaq üçün daha çevik və yeni sahələrə meyil edirlər. İndi "viner"lərin, "youtuber"lərin hətta jurnalistləri də üstələdiyini görürük. Yəni, gənclərin bu sahələrə meyl etməsi normal qarşılanmalıdır.

Hər hansı bir müğənninin soyunmağı insanlara daha çox maraqlıdır, nəinki onun hər hansı bir sənət əsərini ortaya qoymağı. Hər hansı bir tanınmış adamın zorlanması ilə bağlı xəbərlərə milyonlarla baxış var, nəinki onun hər hansı bir əsəri. Bu səbəbdən gənclər bu yeniliklərə meyl edir".

**Təhsil eksperti Kamran Əsədov:** "Pandemiya şəraiti təhsil üçün böyük çağırışlar ortaya qoydu. Peşə təhsili üçün bu çağırışlara cavab vermək, bir qədər çətin oldu. Çünki peşə təhsili mahiyyət etibarilə praktiki təlimlər və istehsalat təcrübəsinə əsaslanan bir öyrənmə prosesidir.



Peşə seçiminin fərdi və ictimai tərəfi var. Əfsuslar osun ki, bizdə ictimai tərəf nəzərə alınmır. İnsanlar daha çox peşənin fərdi tərəfini nəzərə alırlar ki, bu ixtisasını başa vurduqdan sonra özümə necə karyera qura bilərəm. Amma çox az insan idealist olaraq düşünür ki, ölkəm, millətim üçün necə yardımçı ola bilərəm. Bu da peşə seçimində problemli tərəfdir.

Perspektivli peşələr:
-Bank işçisi,
-Kompyuter mühəndisi
-İT mühəndisi
-Qida sahəsində mütəxəssis,
-Maliyyə sahəsi
-İxtisaslaşmış həkimlər
-Sənaye mühəndisləri

Perspektivsiz peşələr:

-Beynəlxalq münasibətlər,
-Sosial və humanitar sahələr,
-Pedaqoji ixtisaslar

Əvvəllər insan əməyi hər bir sahədə lazım olurdusa, texnologiya inkişaf etdikcə tədricən işçi qüvvəsinə ehtiyac qalmır. Artıq dünyada əksər sahələr robotlaşdırılır. Bu inkişaf peşə seçiminə də öz təsirini göstərir. Belə ki, əvvəllər "hörmətli" hesab edilən peşə və ixtisaslar indi məzunlar tərəfindən seçilmir, peşə və ixtisaslar məzunların seçiminə görə nüfuzlu və nüfuzsuz peşə və ixtisaslara bölünür.

Bəzi ixtisaslarda isə rəqabət demək olar ki, yoxdur. Buna səbəb kimi bazar iqtisadiyyatında bu ixtisaslara olan tələbatı göstərmək olar: Məsələn, müəllimlik ixtisasının seçilən ixtisaslar arasında ilk yerdə olması sevindiricidir. Amma heç bir peşə bir başqa peşədən aşağı və ya yuxarı siniflendirilə bilməz. Cəmiyyət bir bütündür və hər bir peşənin öz yeri var. Və eyni zamanda qeyd etmək lazımdır ki, hər hansı bir qurumun ixtisas və peşələri siniflendirməsi də düzgün deyil.

Belə ki, uzun müddətli strateji planlarda hansısa ixtisasa ehtiyac olduğu görülürsə, dövlət bu ixtisasları daha irəli çəkməlidir. Cəmiyyətdə bu ixtisasların təbliğatı aparılmalıdır. Məzunların bu istiqamətə yönləndirilməsi həyata keçirilməlidir. Bu təkcə məzunların seçiminə buraxılsa, dövlət dəstəyi olmasa, 4-cü sənaye inqilabının tələbi olan DATA elmi, DATA-analitik, humanitar sahələr, şəxsi psixoloq, şəxsi mentorluq, yeni yaranan və yeni yaranmada olan peşələrə kadr çatışmazlığı olacaq: Bu peşələrə ölkə miqyasında ehtiyac olanda isə ali məktəblərin həmin kadrları yetişdirmədiyi, vaxtında həmin ixtisaslar üzrə fakültələr açılmadığı üçün biz yenə də inkişafda olan ölkələri izləməli olacağıq.

Ölkə miqyasında ixtisasların siyahısına yenidən diqqət yetirmək lazımdır. Eyni zamanda ixtisaslar haqqında məzunlara məlumat verilməlidir. Şagirdlərin öz maraqları, öz istedadları istiqamətində ixtisaslar seçməsi təmin edilməlidir. 50 il bundan qabaq bir ali təhsil almaq, yəni 5 il oxumaq sonra 25-35 il ondan istifadə etməyə bəs edirdi. İndi isə öz ixtisasımızı ən azı 4-5 dəfə dəyişməliyik. Bir ali təhsil kifayət etmir. "Asan xidmət" çox şeyi dəyişdi. Onun kimi informasiya kommunikasiyasına əsaslanan yeni xidmətlər əmələ gələcək. Elektron hökumət olacaq ki, məmura çox da ehtiyac qalmayacaq".

**Şəhər sakinləri isə məsələyə bu cür münasibət bildirib:**

**Şəhər sakini Sona Şıxəmirli:** "Belə bir şey də var ki, nəinki bəzi gənclərdə incəsənətə həvəs ölüb, hətta heç onlarda bu həvəs yaradılmayıb belə. Uşaqlar uşaqlıqdan ancaq standart peşələrə meyillendirilir. Onlar da böyüdükcə, bir gənc kimi formalaşdıqca incəsənətə meyil göstərsə, sırf bu işdə pul yoxdu deyə, ya valideyn qohum-əqrəbanın sözü ilə həvəsdən salınır, ya da elə özü məcbur olur ki, dolana bilmək üçün başqa işdə çalışsın".

**Şəhər sakini Aysu Məmmədova:** "Çünki ölkədə bunlara nə kifayət qədər qiymət verən, nə də gəncləri bu işə həvəsləndirib irəli çəkməyə çalışan yoxdur. Gənc görür ki rəsmlə, incəsənətlə pul qazana bilmir, seçdiyi sahə ilə özünü dolandıra bilməyəcək və məcbur qalıb başqa sahənin ardınca gedir. O sahəyə ilişəndən sonra günlük qayğıları və dərd-səri başlayır. Beləcə sənət də unudulub gedir".

**Şəhər sakini Ləman Babazadə:** "Mənim fikirimcə, hazırda qərb musiqi alətlərini ifa edən gənclərin sayı azlıq təşkil etməkdədir. Bunun səbəbi isə valideynlərin uşaqları kiçik yaşda öz istəklərinə uyğun yönləndirməsidir. Ancaq milli alətlərimizə üstünlük verilməsi də danılmazdır. Qərb alətlərindən istifadə edənlərin azlığını gəlirlərin həddindən artıq aşağı olmasında görürəm. Bununla yanaşı rəsmə, incəsənətə, idmana maraq azalıb. Bildiyiniz kimi 2019-cü ildən bu yana ölkəni və dünyanı koronavirus öz ovcuna alıb. Bunun nəticəsində insanlar cəmiyyətdən kənar qalmaq məcburiyyətində olduğu üçün idman zallarından, incəsənət kurslarından səmərəli istifadə edə bilmir. Həmçinin insanlarda passivlik yaranır. Psixoloji cəhətdən dəyişikliklər müşahidə olunur. Ən əsası isə bunlar bir başa dünyagörüşlərində təsir edir. Nəticədə incəsənətə, rəsmə, musiqiyə, idmana olan maraq azlıq təşkil edir. Daha çox telefon internet, sosial şəbəkələrə üz tuturlar".

***A.Vəli***

---

# "Ermənistanda siyasi böhran dərinləşəcək"

**"Ermənistanın istefa vermiş prezidenti Armen Sarkisyan bu vəzifəyə Serj Sarkisyanın təklifi və təşəbbüsü ilə gətirilmişdi. Buna görə də əvvəlki iqtidarla, bugünkü parlament müxalifəti ilə bağlı şəxs idi. Onun Konstitusiya ilə təsbit olunmuş geniş səlahiyyətləri olmasa da, Paşinyan və onu dəstəkləyən qlobal maliyyə mərkəzi, əlbəttə, Armen Sarkisyanın hakimiyyətdən kənarlaşdırılması məsələsində maraqlı idilər". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə, Ermənistanda siyasi böhranın dərinləşəcəyi halda Armen Sarkisyanın hansı qütbdə dayanacağı bəlli idi: "Əslində, prezident istər Azərbaycanla müharibə dövründə, istərsə də post müharibə dönəmində KİV və mətbuata verdiyi açıqlamalarda ölkənin daxili və xarici siyasəti ilə bağlı məsələlərdə Paşinyandan fərqli baxış və mövqelərə malik olduğunu heç gizlətmirdi də. Məsələn, Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisinin istefaya göndərilməsi ilə bağlı Paşinyanın qərarını o prezident olaraq təsdiq etməmişdir. Özünün istefa ərizəsində də qeyd etdiyi kimi, ölkənin daxili və xarici siyasət problemlərinə kardinal təsir imkanlarının olmamasına baxmayaraq, o, Paşinyan üçün arzuolunmaz fiqur idi".

E.Manafov onu da bildirdi ki, Armen Sarkisyan ölkəsinin Azərbaycanla savaşda məğlubiyyətinə görə məsuliyyətin Paşinyan və komandasına aid olması ilə bağlı fikirlərini ictimaiyyətlə bölüşməkdən çəkinməmişdi: "Buna görə məsuliyyəti Paşinyanla bölüşmək istəməmişdir. Bu mənada prezident vəzifəsində Paşinyana yaxın olan və ciddi siyasi ambisiyalar olmayan şəxsin oturması Ermənistanın indiki iqtidarının xeyrinə işləyəcək. Əgər Paşinyan Zəngəzur dəhlizinin açılması, Azərbaycan və Türkiyə ilə yeni format və fərqli münasibətlərə gedə biləcəyi ilə bağlı açıqlamalarında səmimidirsə, onda bu perspektivdə regionda nəhayət ki, təhlükəsizliyin bərqərar olmasına şübhəsiz ki, öz töhfəsini verəcək, lakin unutmaq lazım deyil, bu kimi məsələlər ətrafında son qərarın verilməsi hüququ Paşinyana deyil, onu hakimiyyətə gətirən bəlli, qlobal maliyyə mərkəzinə məxsusdur".



ŞƏRH+AKTUAL

# Türkiyə və İsrail əvvəlki kimi güclü müttəfiq ola biləcəklərmi?

*İsrail prezidentinin Türkiyəyə səfər planlaması ölkələr arasındakı ikitərəfli münasibətlərdə yeni səhifə açır*

**Son vaxtlar istər Türkiyə, istərsə də İsrail tərəfindən ölkələrarası diplomatik münasibətlərə müsbət cəhətdən yenidən baxılması istiqamətində qarşılıqlı fikirlər səslənməkdədir. Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanın son bir neçə ayda İsraillə münasibətlərin normallaşdırılması yönündə səsləndirdiyi bəyanatları isə artıq belə qənaətə gəlməyə zəmin yaradır ki, "Mavi Mərmərə" qarşıdurmasından sonra dondurulmuş münasibətlərin buzları əriməyə başlayır.**

İsrailli Türkiyə üzrə ekspert:

### "Bu səfər ikitərəfli münasibətlərdə dönüş nöqtəsi olacaq"

Bu arada İsrailin Türkiyə üzrə eksperti Hey Eytan Koen Yanroçaqın mövzu ilə bağlı fikirləri kifayət qədər maraq doğurur. SİA İsrail mətbuatına istinadən xəbər verir ki, yəhudi ekspert İsrail prezidentinin Türkiyəyə səfər etməsi qərarını əhəmiyyətli məqam kimi vurğulayıb və hər iki tərəfin uzaqdan-uzağa aparılan müharibə pərdəsini aradan qaldırmaq marağında olduğunu deyib.

"Bu səfər ikitərəfli münasibətlərdə dönüş nöqtəsi olacaq. Prezident Hersoqun Ankaraya dəvət alması, eləcə də onun münasibətləri yoluna qoymaq istəyi yönündə yaşıl işıq yandırması yalnız yaxşı halın başlanğıcı kimi dəyərləndirilə bilər", deyən israilli ekspert əlavə edib ki, İsrailin əsas istəyi və hədəfi HƏMAS-ın Türkiyənin ərazisində operativ mövcudluğuna, eyni zamanda, türk siyasəti və ictimai diskuslarında anti-İsrail ritorikasına son qoymaqdan ibarətdir.



### Prezident İshaq Hersoqun atası, İsrailin altıncı prezidenti Haim Hersoq da 1992-ci ildə Ankaraya səfər etmişdi

Yanroçaq İsrail prezidenti İshaq Hersoqun atası Haim Hersoqun yolunu davam etdirdiyini bildirib və xatırladıb ki, mövcud prezidentin atası İsrailin altıncı prezidenti olarkən, 1992-ci ildə Ankaraya səfər etmişdi və həmin səfər ölkələr arasındakı münasibətləri möhkəmləndirmişdi.

"Türkiyənin İsraillə münasibətdə siyasətini dəyişdirməsi Ankaranın regional yanaşmadakı siyasətini daha böyük miqyasda olduğunu göstərir", deyən Türkiyə üzrə yəhudi mütəxəssis həmçinin qeyd edib ki, Ankara paralel olaraq Misir, BƏƏ və Səudiyyə Ərəbistanı ilə də münasibətlərini yoluna qoymağa çalışır.

**Rövşən RƏSULOV**

---

Vüqar Rəhimzadə:

# "Azərbaycan dünyanı erməni faşizmi ilə mübarizədə birliyə, həmrəyliyə çağırır"



**"Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları hər bir bölgənin, şəhər və kəndin, qəsəbənin müasir tələblər səviyyəsində qurulmasına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən layihələrin icrasında əhəmiyyətli rol oynayır. 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən dövlət başçısı İlham Əliyev iqtisadi tərəqqinin qeyri-neft sektorunun hesabına olması ilə bağlı çağırışlar edəndə bu məqsədə nail olmaq üçün regionların malik olduqları imkanlardan maksimum istifadənin vacibliyini bildirdi və ilk Dövlət Proqramını təsdiqlədi.**

Son 18 ildən artıq dövrdə regionların inkişafı ilə bağlı əldə olunan nəticələrə diqqət yetirmək kifayətdir. Bütün infrastruktur müasir tələblərə uyğun şəkildə yenilənib. Ən ucqar kəndin, qəsəbənin belə işığa, suya, qaza olan tələbatı yüksək səviyyədə təmin olunub. Dövlət başçısı İlham Əliyevin yanvarın 30-da Gəncəyə 18-ci səfəri çərçivəsində açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi sosial obyektlərin sayına, ən əsası Vətən müharibəsi dövründə ermənilərin növbəti vəhşiliklərinin təzahürü olan Gəncə terrorunun dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynayacaq Gəncə Memorial Kompleksinin təməlinin qoyulmasına diqqət yetirmək kifayətdir. Ölkə Prezidentinin digər bölgələr kimi Gəncə şəhərinə də hər səfəri yeni sosial, iqtisadi, mədəni və digər obyektlərin açılışı və yaxud da təməlqoyma mərasimləri ilə yadda qalıb. Həmin sosial, iqtisadi, mədəni və digər layihələrin əlamətdar xüsusiyyəti ondan ibarətdir ki, onlar nəinki Gəncənin inkişafına, eləcə də bütün ətraf bölgələrin tərəqqisinə xidmət edir. Bakıdan Gəncəyə dəmir yolu xətti tam modernləşdirilib. Hazırda Bakıdan Gəncəyə və Gəncədən Bakıya yüksək sürətli qatarlar işləyir. Bu, insanların rahatlığı üçün önəmli məsələdir. Dövlət başçısının səfəri çərçivəsində "Azərbaycan Dəmir Yolları" QSC-nin lokomotiv deposunun açılışı oldu. Lokomotiv deposunun istismarı enerji resurslarına qənaətə, xərclərin azalmasına, təmir və texniki xidmətin optimallaşdırılmasına və fasiləsiz daşımaların təmin olunmasına imkan yaradacaq. Deponun Gəncədə inşa edilməsi onun yerləşdiyi məkanla, malik olduğu iqtisadi və sənaye potensialı ilə bağlıdır". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyevin Gəncə şəhərinə səfəri əlamətdar hadisələrlə yadda qaldı. Dövlət başçısının səfər çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a verdiyi müsahibədə səsləndirdiyi fikirlər Ermənistana və ona havadarlıq edənlərə ciddi mesaj oldu: "44 günlük İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunun hər günü tariximizə Zəfər günü kimi yazmasını, bir gün belə geri çəkilməməsini, 30 ilə yaxın dövrdə havadarlarının dəstəyi ilə qurduqları istehkamların böyük qəhrəmanlıqla yarılmasını həzm edə bilməyən Ermənistan silahlı qüvvələri hərbi cinayət törədərək döyüş bölgəsindən xeyli uzaqda yerləşən Gəncə şəhərini bir neçə dəfə beynəlxalq hüquq çərçivəsində qadağan olunmuş silahlardan atəşə tutaraq xeyli sayda dinc insanın həlak olmasına, yaralanmasına, yaşayış evlərinin, sosial obyektlərin dağıdılmasına səbəb olmuşdular. Gəncədə 26 mülki vətəndaş erməni faşizminin qurbanı oldu. Şəhid olanların 6-sı uşaq idi. Bu hərbi cinayətlər dünyanın gözü qarşısında baş verdiyi halda dünya gücləri hələ də gözləmə mövqeyində dayanıblar. Amma unudurlar ki, 30 ilə yaxın dövrdə belə seyrçi mövqedə dayanmaq sonda 44 günlük Vətən müharibəsinin yaşanmasına, Ermənistanın diz çökməsinə, ən əsası ədalətin və beynəlxalq hüququn mövcudluğunun dünya tərəfindən qəbul edilməsinə gətirib çıxardı. Dünya Azərbaycanın hansı gücə malik olduğunu gördü. Qanlı cinayətin törədildiyi vaxtdan həmin məkan insanların ziyarət yeri olub, həmçinin xarici qonaqların həmin əraziyə səfərləri təşkil olunub. Prezident İlham Əliyev Gəncəyə səfəri zamanı həmin ərazidə inşa olunacaq Memorial Kompleksin təməlini qoydu və Azərbaycan Dövlət İnformasiya Agentliyinə müsahibəsini məhz həmin dağıntıların qarşısında verməklə dünyaya mesajlarını ünvanladı".

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, Gəncədə yaradılacaq Memorial Kompleks təbliğat işinə böyük töhfə verəcək. Bu kompleks həm ölkə vətəndaşlarımızın, həm də xarici qonaqların ziyarət etdiyi məkan olacaq. Dövlət başçısı İlham Əliyevin bütün çıxışlarının mahiyyətində bu çağırış dayanır ki, biz Ermənistana sülh müqaviləsinin imzalanmasını təklif etsək də mənfur düşmənin törətdiyi vəhşilikləri, vandalizmi, terror aktlarını unutmayacağıq. Ölkə Prezidentinin bu çağırışına söykənərək deyə bilərik ki, Gəncə Memorial Kompleksi gələcək nəsillərin erməni faşizminin qanlı əməlləri barədə əsaslı məlumtları əldə etmələrinə dəstək olacaq. Dövlət başçısı bildirir: "Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni, bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq".

Vüqar Rəhimzadə Azərbaycanın 44 günlük Vətən müharibəsində erməni faşizmini məğlub etdiyini önə çəkərək bildirib ki, onun bütün təzahürlərini yer üzərindən silmək gücünə malikik. Azərbaycan bunu 44 günlük İkinci Qarabağ müharibəsində dünyaya nümayiş etdirdi. Amma əsas çağırış budur ki, erməni faşizminin tamamilə məhv edilməsi üçün dünya dövlətləri, beynəlxalq ictimaiyyət gərək həmrəy olsun. "Erməni faşizminin XXI əsrdə törətdiyi bu dağıntılar hamı üçün gərək bir nümunə olsun ki, faşizmin yaxşısı, pisi yoxdur" söyləyən dövlət başçısı, eyni zamanda, bu mesajı da ünvanladı ki, biz heç vaxt bölgədə erməni faşizminin baş qaldırmasına imkan verə bilmərik. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir".

YAP Xətai rayon təşkilatının sədri Azərbaycanın tarixi Zəfərimizdən sonra xarici siyasət uğurlarının daha geniş miqyas almasından geniş bəhs edərək bildirib ki, bu günlərdə Rusiyada erməni diasporunun səylərinə baxmayaraq faşist Qaregin Njde haqqında filmin yayımı dayandırıldı. Ölkə Prezidenti bütün çıxışlarında erməni faşizmindən geniş bəhs edərək dünyaya bu mesajı ünvanlayır ki, faşizmi qəhrəmanlaşdırmaq olmaz. Ermənistan bir tərəfdən rəsmən bu fikirlərə qoşulsa da, faktiki olaraq Njde kimi faşistin qəhrəmanlaşdırılması ilə bağlı konkret addımlar atır. Bu günə qədər Ermənistanda faşist Njdenin adını daşıyan küçələr, meydanlar, metro stansiyası var. Ona böyük abidə qoyulub. Bu abidə bu günə qədər sökülməyib. Bu, göstərir ki, erməni faşizmi yaşayır. Hər bir çağırışı ilə ədalətin, beynəlxalq hüququn bərpasına, ikili standartlara əsaslanan siyasətə son qoyulmasına çalışan Azərbaycan bir daha dünyanı erməni faşizminə qarşı mübarizədə birliyə, həmrəyliyə çağırır.

**Avtomobil sahibi olmaq hamımızın ümumi ehtiyacı və istəyidir. İndiki şəraitdə avtomobil zərurətə çevrilib. Nəqliyyat vasitəsinə sahib olmağımız lazım olsa da, ilk növbədə haqlı olaraq xərcləyəcəyimiz yanacağı düşünürük. Avtomobil sahibi olmamışdan əvvəl xəbərdar olmanız üçün ən az yanan dizel avtomobillərinin siyahısını hazırlamışıq. Hansı avtomobillər daha az yanacaq tələb edir? Yanacaq sərfiyyatı az olan avtomobillərin siyahısında ilk onluqda hansılar var?**

Ən az yanan dizel avtomobillərinin siyahısı "Volkswagen Passat" ilə başlayır. Passat-ın mühərrikləri güclü olduğu qədər də qənaətcildir. Bu səbəblə maşın sürməyi sevənlər, lakin yanacaq sərfiyyatını az saxlamaq istəyənlər üçün Passat əla seçimdir. "Volkswagen Passat" 100 kilometrə orta hesabla 3,9 litr yanacaq sərf edir.

sərf edir.

Alçaq gövdəsi, heykəltəraşlıq xətləri və sərt, güclü üslubu ilə "Peugeot 508" idman və innovasiya sahəsində yeni eranı qeyd edir. Yüksək səmərəli mühərrikləri ilə sürücülük zamanı gücü ən sıx hiss edir. "Peugeot 508" 100 kilometrə orta hesabla 3,8 litr yanacaq sərf edir.

erqonomik dizaynı, qəşəng və geniş interyeri və funksional detalları ilə sizin üçün son dərəcə rahat məkan yaradır. "Ford Focus" 100 kilometrə orta hesabla 3,4 litr yanacaq sərf edir.

"Opel Corsa" göz oxşayan dizaynı və yüksək performansı ilə ən az yanan dizel avtomobilləri siyahısında 2-ci yerdədir. Çox az yanacaq sərf edən bu avtomobil rahat



tə üstünlük verməli olduqlarını ifadə edən Dikici, tələbatın kiçik sinif avtomobillərdə cəmləndiyini vurğulayıb.

Ən çox diqqəti 1,3 cc mühərrik həcminə malik multijet 75 at gücünə malik avtomobillərin çəkdiyini ifadə edən Dikici, bunları söyləyib: "Balon həcmi 1,3 kubmetr olan bu avtomobillərlə 46 litr dizel yanacağı ilə min kilometr məsafə qət etmək olar. Bu avtomobillər yanacaq qənaəti ilə tanınan LPG avtomobillərindən də az yanacaq".

Dikici, kiçik avtomobillərin hər 10 min ki- l o -



ki, Avropada, Skandinaviya ölkələrinin bəzilərində artıq hibrid avtomobillər ikinci plandadır. Əsas planda elekt-



# Hibrid avtomobillər real qənaət, yoxsa lazımsız xərcdir?



İdman üslublu eksteryer detalları, optimal avtomobil təcrübəsi, yeni kabin toxunuşları və təkmilləşdirilmiş mühərrik sıralamasında "Giulietta" özünü bir daha təkmilləşdirdi. Bütün yeniliklər avtomobilin performansını yaxşılaşdırmaq və sürücüyə unikal sürücülük hissi vermək üçün nəzərdə tutulub. "Alfa Romeo Giulietta" 100 kilometrə orta hesabla 3,9 litr yanacaq sərf edir.

Zərifliklə yenilənmiş "C-Elysse" prestijli görünüşünü gücləndirən radiator barmaqlığı və innovativ dizayn edilmiş işıqlandırma sistemi ilə mükəmməl inkişaf nümayiş etdirir. "Citroen C-Elysse"in ön hissəsi aerodinamikanı yaxşılaşdırmaq və idarəetməni gücləndirmək üçün genişləndirilib. Bu sedanın əla idarəetməsi və asma rahatlığı xoş səyahətə mühüm töhfə verir. "Citroen C-Elysse" 100 kilometrə orta hesabla 3,9 litr yanacaq

Keçən ilin ən diqqətçəkən avtomobil modelləri arasında yer alan "Citroen C4" güclü dizayna və özünəməxsus xarakterə malikdir. Sürmə keyfiyyəti və təhlükəsizliyi ilə yanaşı, kruiz kontrolu və təpə başlanğıc dəstəyi ilə də diqqət çəkir. "Citroen C4" 100 kilometrə orta hesabla 3,8 litr yanacaq sərf edir.

Tamamilə sürücülük hisslərinizi canlandırmaq üçün nəzərdə tutulmuş "Peugeot 308" dünyasında



yerinizi alın. Siz daha çevik və intuitiv sürücülük təcrübəsi kəşf edəcəksiniz. "Peugeot 308" 100 kilometrə orta hesabla 3,6 litr yanacaq sərf edir.

"Ford Focus", təmin etdiyi rahatlıq ilə idarə edərkən təhlükəsizliyi daha yüksək səviyyəyə çatdırır. Dayan-qal funksiyası, təkmil adaptiv sürətə nəzarət sistemi və avtomatik parkinq sistemi kimi sürücüyü dəstəkləyən texnologiyaları ilə ürəkləri fəth edir. Eyni zamanda

sürmə təcrübəsi təqdim etməklə yanaşı, həm cibinizə, həm də ətraf mühitə dostcasına yanaşma nümayiş etdirir. "Opel Corsa" 100 kilometrə orta hesabla 3,2 litr yanacaq sərf edir.

İqtisadi böhranda cibini düşünən vətəndaşlar silindrinin həcmi az olan qənaətcil avtomobillərə üstünlük verirlər. LPG-li avtomobillərdən daha az yanacaq sərf edən kiçik avtomobillərə sahib olmaq üçün 2-3 həftə növbə gözləmək lazımdır.

Türkiyənin Konya şəhərində fəaliyyət göstərən Koyuncu Avtomobilin Satış Müdiri Atıf Dikici, istehlakçıların adətən daha böyük silindrli avtomobillərə üstünlük verdiklərini söyləyib.

Bununla belə, Dikici, yanacaq qənaətinə önəm verənlərin və ticari avtomobil sürənlərin daha az silindrli avtomobillərə üstünlük verdiyini, iqtisadi böhranın təsirlərinin görünməyə başladığı son aylarda müştərilərin əksəriyyətinin avtomobillərə üstünlük verməyə başladığını söyləyib.

İqtisadi böhranın vətəndaşları qənaət etməyə sövq etdiyini, yeni avtomobilə sahib olmaq istəyənlərin isə yanacaq qənaətində qənaə-

metrdən bir baxım xərcinin 110 TL olduğunu, bazarla müqayisədə çox aşağı olan baxım xərclərinin də bu avtomobillərə üstünlük verilməsinin başqa bir səbəbi olduğunu bildirib.

Bu avtomobillərə olan sıx maraq səbəbindən dərhal avtomobili almağın mümkün olmadığını bildirən Dikici, "Bu maşınlardan birinə sahib olmaq istəyən vətəndaşlar 2-3 həftə növbə gözləməli olurlar" deyib.

Az yanacaq sərfiyyatı olan kiçik sinif avtomobillərin şəhərdə yüksək manevr qabiliyyətinə malik olduğunu ifadə edən Dikici, bu vasitələrin həm də insanların sıx şəhər trafikində asanlıqla park etmələrinə imkan verdiyini vurğulayıb.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspertlərin fikirlərini öyrənib:

**Nəqliyyat eksperti Elməddin Muradlı:** "Hibrid avtomobillərinin hal-hazırda dünyada satış reytinqi çox yüksəkdir. Düzdür, bu bəzi ölkələrə aid olan yanaşmadır. Çün-

romobillərdir. Çünki onlar artıq hibrid avtomobillərin dövrünü çoxdan yaşayıb bitiriblər. Bugün o ölkələrdə elektromobillərə keçid sürətlə gedir.

Azərbaycanda isə hibrid avtomobillərə böyük maraq var. Bugün həqiqətən insanlar, sürücülər əsasən hibrid avtomobilləri almağa çalışırlar. Amma təbii ki, ağıllı insanlar köhnə hibrid yox, yeni hibridlərə üstünlük verirlər. Çünki köhnə hibridlər hansı ölkədən gətirildiyi, mənşəyi məlum deyil, o ölkələrdə onun başına nə işlər gəlib, suya düşüb, sunamiyə düşüb, hansısa bir qəzadan çıxıb. Bu problemlər ölkəyə gələndən sonra daha çox üzə çıxır və bunun da əziyyətini, xərcini sürücülərimiz çəkir ki, bugünkü gün üçün o maşını o vəziyyətdə saxlamaq çox çətindir. Çünki xərclər çox baha olur. Hibrid avtomobillərin də elementləri biraz bahadır, fərqlidir.

ARAŞDIRMA

Ardı Səh. 12

Əvvəli Səh. 11

Ancaq yenə də sürətli şəkildə insanlar arasında köhnə hibrid avtomobillərə keçid var və bunun fonunda dövlət tərəfindən müəyyən addımlar atıldı, Milli Məclisdə artıq qanun qəbul edildi. Hibrid avtomobillər əlavə dəyər vergisindən azad olunur. Son üç ilin istehsalı olan hibrid avtomobillər əlavə dəyər vergisindən azad olunub. Eyni qaydalar elektromobillərə də tətbiq olunub. Ölkəyə gətirilərkən və burda satışı zamanı ƏDV-dən azaddır. Yəni, əlavə dəyər vergisindən azad olunub. Bu ümumilikdə bu istiqamətdə atılan müsbət addımlardır.

Təbii ki, bu sektorda müəyyən təsirləri də olacaq. Sadəcə bugünkü qiymətlər o qədər bahadır ki, insanlar məcburən onun işlənmişinə, ili biraz köhnə olana üstünlük verirlər. Çünki pulları ona çatır. Amma bu istiqamətdə müəyyən təbliğat işləri, izahat işləri aparılsa insanlar başa düşər ki, 10-12 min manata, 15 min manata almaqdansa və 1-2 ildən sonra onun üstünə bir o qədər də pul qoymaqdansa, imkanlaşdırıb 30-35 minə onun biraz təzəsini almaq daha əlverişlidir. Yəni bu istiqamətdə müəyyən addımlar atmaq olar.

Azərbaycanda hibrid avtomobillərə böyük maraq var. Dünyanın bir çox ölkələri də artıq buna keçid dövrünü yaşayır. Yəni, Azərbaycan kimi onların da marağı böyükdür. Çünki, yanacağa 50 faiz qənaət edirsən, ətraf mühiti çirkləndirmir, daha az çirkləndirir. Yəni, karbondioksid zəhərli maddədir və benzinlə, dizellə işləyən avtomobillərdə bu zəhərli maddələr atmosferə daha çox atılır. Ona görə elektromobil burada öz sözünü deyir. Hibridlərin də gücü az deyil. Sadəcə olaraq stimullaşdırıcı addımlar atarkən elə imkanlar yaradılmalıdır ki, əlçatan olsun".

**İqtisadçı deputat Vüqar Bayramov:** "Bütövlükdə dünya avtomobil bazarında hibrid avtomobillərə tələbin artması müşahidə olunur. Nəzərə alsaq ki, Azərbaycanda da bu ilin yanvarın 1-dən etibarən istehsal tarixi 3 ildən çox olmayan və mühərrik gücü 2,5-dək olan hibrid avtomobilləri ƏDV-dən azad olundu. Məqsəd də təbii ki, həmin avtomobillərə tələbi artırmaq, daha çox hibrid avtomobillərin ölkə idxalına nail olmaqdan ibarətdir. Çünki, hibrid avtomobillər bir tərəfdən ekoloji baxımdan təmizdir, vacibdir. Digər tərəfdən isə bu nəticədə avtomobil bazarının yeniləşməsinə gətirib çıxaracaq. Ona görə Azərbaycanda da hibrid avtomobillərinə tələbin artması müşahidə olunur. Düzdür apardığımız monitorinqlər göstərir ki, daha çox ili nisbətən köhnə olan, Yaponiyada istehsal olunan hibrid avtomobillərə tələb formalaşıb. Amma xüsusən də dövlət tərəfindən təşviqedici tədbirlərin həyata keçirilməsi, güzəştlərin tətbiqi deməyə əsas verir ki, Azərbaycanda da avtomobil bazarında istehsal tarixi yeni olan hibrid avtomobillərin ölkəyə gətirilməsi artacaq. Bu da təbii ki, birbaşa tələblə bağlıdır. Bu baxımdan bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda da hibrid avtomobillərə tələbin artması müşahidə olunmaqdadır və nəticədə eyni zamanda vergi ilə bağlı tətbiq edilən güzəştlər də hibrid avtomobillərin, xüsusən də istehsal tarixi yeni olan hibrid avtomobillərin də qiymətinin azalmasına səbəb olacaq ki, bu da həmin avtomobillərə tələbi daha da artıracaq.



SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib.

**Şəhər sakini Paşa Məmmədov:** "Hibrid avtomobillər ekoloji təmiz və yanacağa qənaəti ilə seçilir. Azərbaycanda günü-gündən artan yanacaq qiymətləri və gömrük rüsumları nəticəsində insanlar daha kiçik mühərrik həcminə malik avtomobillərə üstünlük verir. Bunların arasında ekonomluğu ilə seçilən hibrid avtomobillər də var".

**Şəhər sakini Nicat Ələkbərov:** "Hibrid avtomobillərin istifadəsi yerli sürücülər tərəfindən 4-5 il öncəsinə qədər "isti" qarşılanmasa da, son dövrlərdə xüsusən Avropa bazarından yerli bazara hibrid avtomobil idxalında ciddi artım müşahidə olunur. Ölkəyə gətirilən bu tip avtomobillərin artmasının səbəbi, tələbat olduğu üçün artıq ehtiyyat hissələrinin əlçatan olması, yanacağa qənaət və ən əsası motor həcminin kiçik olması səbəbindən vergi miqdarının benzin və dizel avtomobillərə nisbətən az olmasıdır. Düşünürəm ki, qarşıdakı 10 il ərzində elektromobil və hibrid avtomobillərin həm idxalı, həm də istifadəsi indiyə nisbətdə daha da artacaq".

**Şəhər sakini Mikayıl Quluzadə:** "Hibrid avtomobillər indiki vaxtımızın tələblərini qarşılayan nəqliyyat vasitəsidir. Həm ekonom, həm də büdcəyə uyğun ən əsası da ekologiyamıza zərər verməyən avtomobildir. Bu kimi özəlliklərinə görə hamı tərəfindən bəyənilir və getdikcə Azərbaycanda sayı artmaqda davam edir. Hibrid avtomobillər bir çox insan tərəfindən bəyənildiyi üçün Azərbaycanda tələbat artmışdır".

***Ayşən***

# "Ermənistanda hələ də siyasi depressiya vəziyyəti davam edir"

"Ermənistanın xarici işlər naziri Silahlı Qüvvələrin yaranmasının 30 illiyi münasibəti ilə hərbi yerablur panteonunda jurnalistlərə müsahibəsində erməniləri reallıq hissinə qaytarmaq istiqamətində çıxış edib. Onun çıxışının əsas vurğusu bundan ibarət olub ki, reallığın gözünün içinə baxmaq lazımdır və açıq danışmaq gərəklidir, heç nəyi gizlətməmək lazımdır". Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq İlyas Hüseynov deyib.



Politoloq qeyd edib ki, eyni zamanda həm Vətən müharibəsindən öncə, həm də Vətən müharibəsinin gedişində Ermənistanım hərbi-siyasi rəsmiləri xalqa yalan danışırdılar və Müdafiə Nazirliyinin sözçüləri Şuşan Stepanyan, eləcə də Arçrun Ovannisyan davamlı olaraq xalqı aldadır və hərbi sahədə olan uğursuzluqları gizlətməyə çalışırdılar: "Erməni xalqı elə düşünürdü ki müharibədə qalib gəlirlər, zəfər qazanırlar. Lakin reallıqda Azərbaycanın müzəffər ordusu qarış-qarış torpaqları işğaldan azad edirdi. Bu gün də qalibiyyət sindromunu yaşayan I Qarabağ müharibəsinin reallıqları ilə hələ də beyinləri dolu olan erməni xalqını reallığa qaytarmaq lazımdır və geosiyasi reallıqlar haqqında geniş məlumat vermək və bu reallıqlarla barışmağın zamanıdır. Çünki, bölgədə tamamilə başqa bir proseslər gedir.

İqtisadi sahədə əlaqələrin bərpa olunması, nəqliyyat və kommunikasiya xətlərinin açılması, sərhədlərin delimitasiyası, sülh sazişi ilə bağlı proseslərin getməsi fonunda ermənilərin hələ də revanşist ideyalara sadiq qalması, erməni ordusunun qüdrəti haqqında müxtəlif saxta və həqiqətə uyğun olmayan fikirlərin irəli sürülməsi tamamilə yolverilməzdir. Ermənistanda hələ də siyasi depressiya vəziyyəti davam edir, növbədənkənar parlament seçkilərinin keçirilməsinə baxmayaraq prezident istefa vermişdir və yeni prezident seçkilərinin bu yaxınlarda keçirilməsi gözlənilir və Ermənistanın xarici işlər naziri bunları bilərək xalqı oyatmağa və yalanla yaşamağı dayandırmağa çağırır. Düşünürəm ki, həqiqətən də Ermənistan cəmiyyəti oyanmalı və reallığın gözünə dik baxmalıdır və bu reallıqla uzun müddət əbədi olaraq yaşayacaqlar. Qarabağın eləcə də Şərqi Zəngəzurun Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını ermənilər kimi bütün dünya da bilir, qəbul edir və bu reallıq uzun müddət ərzində, əsrlər boyunca reallıq kimi qalacaqdır. Azərbaycan bu reallığın əsasında inkişaf edəcək, yeni hərbi-siyasi zəfərlər əldə edəcəkdir".

***Rüqəyya Orucova***

# "Lizinq aqrar sektorun inkişafı üçün vacib faktordur"

"Lizinq fəaliyyətinin təkmilləşdirilməsi aqrar sektor üçün vacib istiqamətlərdən biridir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov bildirib.

Onun sözlərinə görə, bütövlükdə qanunvericilikdə baş verən dəyişikliklərin əsas məqsədi kənd təsərrüfatında çalışan sahibkarların lizinqə çıxış imkanlarının artırılmasından ibarətdir: "Nəzərə alsaq ki, lizinq, aqrar sektorun inkişafı və xüsusən də əkinçiliyin inkişafı çox vacibdir. Ona görə də bütövlükdə lizinq xidmətinin keyfiyyətinin daha da artırılması, burada təbii ki, optimal şərtlərlə lizinqin təqdim edilməsi, fermerlərin, eləcə də sahibkarların lizinqlərə çıxış imkanlarının artırılması prioritet məsələdir. Gözlənilir ki, 2022-ci il daxil olmaqla növbəti dövrlərdə fermerlər lizinqdən daha çox istifadə etmək imkanına malik olacaqlar. Bu daha çox onların öz təsərrüfatlarının genişləndirilməsi baxımından vacibdir. Nəzərə alsaq ki, ərzaq təhlükəsizliyi və ərzaq təminatı nəinki Azərbaycanda ümumilikdə bütün dünya üçün prioritet məsələlərdəndir. Çünki lizinq xidmətlərinin genişləndirilməsi əsas istiqamətlərdən biridir. Bu, bütövlükdə aqrar sektorda məhsuldarlığın artmasında, xüsusən də fermerlərin öz təsərrüfatlarının genişləndirməsinə stimul yaradacaq".

***Arzu Qurbanzadə***

# Vaan Kerobyan: "Ermənistanın iqtisadiyyatı Türkiyə üçün açıqdır"




"Türkiyə şirkətləri hər zaman erməni şirkətlərinin kapitallarında yer alıb". SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan jurnalistlərlə keçirdiyi brifinqdə bu fikirlərini açıqlayıb. Erməni nazir KİV nümayəndələrinin Türkiyə vətəndaşlarının Ermənistanın investisiya proqramlarındakı iştirakları haqqında məlumatları öyrənmələri üçün dövlət reyestrinin mərkəzi depozitarisinə müraciətlər ünvanlamağı tövsiyə edib.

"Hökumətin hədəfi ondan ibarət deyil ki, iqtisadiyyatımızı digər ölkələrin üzünə bağlayaq, əksinə, bizim marağımız bazarda rəqabətədavamlı şirkətlərə sahib olaraq onu inkişaf etdirməkdən ibarətdir", Kerobyan deyib. O, həmçinin qeyd edib ki, bu gün Avropa şirkətlərinin Çindən çıxaraq yaxın regionlara dəyişmələri tendensiyası müşahidə olunur. Avropa İttifaqı Çində işləyən şirkətlərin məhsullarına logistik xidmətlərdəki qiymət artımına görə əlavə vergilər tətbiq edir, Çində işləmək isə artıq daha az cəlbedici görünür.

***Rövşən RƏSULOV***

# "Omikron" insanlara necə təsir edir ?

**"Yoluxma hallarında artımın baş verməsi gözlənilən hal idi. Çünki "Omikron" ştammı daha çox yayılma qabiliyyətinə malikdir. Hal-hazırda da, aktiv xəstə sayı 6 min üzərində müşahidə olunur". Bu sözləri SİA-ya açıqlamasında həkim infeksionist Vasif Əliyev bildirib.**

Onun sözlərinə görə, bunun qarşısını almaq üçün gigiyenik qaydalara, ara məsafəsinə və maskanın taxılmasına ciddi riayət olunmalıdır: "Bununla yanaşı, peyvədlər vurulmalıdı. Onu da qeyd etmək istərdim ki, yoluxma sayı artsa belə, bu xəstəlik yüngül formada keçir. Yüngül formada keçməsinin əsas səbəbi daha əvvəl xəstəlinib sağalmış insanların və peyvənd vurduran şəxslərin sayının çoxluğudur. Yoluxma nə qədər çox olsa da, xəstəxanaya yatış ehtiyacımızı azaltmaq lazımdır. Çünki ölüm riski nə qədər aşağı olarsa, yoluxmanın artması bir o qədər də təhlükəli olmaya bilər. Yəni önəmli olan xəstəxanaya yatışı azaltmaqdı. Bu da ancaq fərdi gigiyena və müəyyən qaydalara əməl olunma nəticəsində aradan qalxa bilər. Bildiyiniz kimi, fevralın 15-dən 3-cü doza vaksin prosesi baş tutacaq. İnsanlara tövsiyə edərdim ki, 3-cü dozanı vurdursunlar. Fikrimcə, qapanmalar yalnız xəstəxanalarda yer çatışmazlığı nəticəsində baş verə bilər. Lakin əks-təqdirdə qapanma gözlənilmir".

***Banuçiçək Hüseynli***

# Dövlət başçısının siyasi iradəsi, gənclərimizin qəhrəmanlığı bizi Şuşaya qaytardı

*Prezident İlham Əliyev: "Şuşa hamımız üçün əziz, doğma şəhərdir"*

**44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra işğaldan azad edilmiş ərazilərin bərpasına başlanılıb. Yenidənqurma proqramı artıq həyata keçirilir, yeni layihələr reallaşır. İşğaldan azad olunan ərazilərimiz sırasında Qafqazın mirvarisi, Qarabağın döyünən ürəyi olan Şuşada da 28 illik işğal tarixindən sonra böyük quruculuq işlərinə start verilib. Vaxtilə ermənilərin məskən saldığı ərazilər öz sakinlərini ağuşuna alır və böyük "ümidlərlə" yaşayan ermənilərin bütün utopiyaları alt-üst olub. Onsuz da tarix boyu belə olub. Ermənilərin utopiyaları həmişə uğursuzluğa düçar olub.**

İşğaldan azad olunan ərazilərimiz sırasında Qafqazın mirvarisi, Qarabağın döyünən ürəyi olan Şuşa 28 illik işğal tarixindən sonra öz sakinlərini qəbul edir. Hətta doğulduğu zamandan bu günə qədər Şuşada olmayan insanlar belə bu əziz torpağa səyahət edir. Fevralın 2-də Bakıda keçirilən Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Şuşa hamımız üçün əziz, doğma şəhərdir. Şuşada olmayanlar, əlbəttə ki, mütləq Şuşada olacaqlar. İndi, bilirsiniz, avtobus turları təşkil edilir, hər Azərbaycan vətəndaşı Şuşaya gedə bilər. İndi oraya getmək üçün gözəl imkanlar yaranıb".

### "ŞUŞASIZ BİZİM İŞİMİZ NƏİNKİ YARIMÇIQ OLA BİLƏRDİ, NATAMAM OLA BİLƏRDİ"

Ermənilərin özgə torpaqlarına göz tikmək, harınlıqla nəyisə əldə etmək ideyaları alt-üst edildi. Azərbaycanın haqlı mövqeyi, 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi, uğurlu diplomatiyası və müzəffər ordumuzun gücü ermənilərin kim olduqlarını sübut etdi.

"Şuşanın azad edilməsi, müharibənin ilk günlərindən bizim əsas vəzifələrimizdən biri idi" - deyən Cənab Prezident bildirib ki, çoxsaylı müsahibələrimdə çalışırdım ki, bu sualdan yayınım: "Amma bir neçə dəfə artıq birbaşa sual verildiyi üçün demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olar. Hər halda maksimum nə deyə bilərdim, o idi. Əlbəttə ki, Şuşasız bizim işimiz nəinki yarımçıq ola bilərdi, natamam ola bilərdi. Bizim məqsədimiz bizim mədəniyyət incimizi qaytarmaq idi və Şuşa əməliyyatı elə keçirildi ki, şəhərə ziyan vurulmadı".

Xatırladaq ki, Ermənistan hakimiyyəti Şuşa şəhərinin bərpasını həyata keçirmək üçün 2000-ci ildə tədbirlər planı hazırlamışdır. İrəvan şəhərində "Şuşi" Mədəniyyət Fondu və "Şuşi" nəşriyyat evini yaratmışdılar. Fond yaradıldıqdan dərhal sonra özünün Şuşa şəhərini dünya ermənilərinin dini və mədəniyyət mərkəzləri kimi inkişaf etdirilməsi layihəsini irəli sürdü. Belə ki, bu layihə çərçivəsində təmir, bərpa və quruculuq işlərinin həyata keçirilməsi 5 mərhələdə həyata keçirilməsi nəzərdə tutulurdu. Yeni turist mehmanxanalarının tikintisi, Qala divarlarının, Xan sarayının, Xan qızının iqamətgahının, qədim hamamın bərpası, eyni zamanda bu abidələrin bərpasından sonra içərisində və ətrafında bütün zəruri rahatlıqlarla təmin edilməsi və s. Hətta O.Tarkanyan adına Mədəniyyət Mərkəzinin yaradılması da plana daxil idi. Yeni erməni ibtidai məktəbinin tikilməsi vacib hesab edilirdi. XIX əsrin əvvəllərində inşa edilmiş Şuşa real məktəbi təmir edilərək, onu Marinay adına gimnaziya adlandırmaq, Zaxaryan adına müasir xəstəxana binasını tikmək və s. planlaşdırılırdı. Bütün bunlar ermənlərin yalnız gələcək üçün olan "plan"ları idi. Amma tarixi ədalət bərpa olundu və haqq yerini tutmuş oldu. Cənab Prezidentin vurğuladığı kimi, Şuşa ermənilər üçün yad şəhər idi: "İkinci Qarabağ müharibəsindən sonra Ermənistan rəhbəri də bunu demişdi, mənim sözlərimi təkrarlamışdı. Əgər bu, erməni şəhəri idisə, nə üçün belə bərbad vəziyyətdədir? Nə üçün bu şəhərə baxmamısınız? Nə üçün bütün bulaqları qurutmusunuz? Bütün tarixi abidələri sökmüsünüz? Yaxşı, bu tarixi abidələr Azərbaycan xalqına məxsusdur. Erməni faşist xislətini nəzərə alaraq, bu, bizim üçün sürpriz deyil. Saraylar, məscidlər, erməni vəhşiləri tərəfindən dağıdılıb. Amma bulaqları niyə dağıtmısınız? Yəni, bu, onlar üçün yad şəhərdir".




### "ON MİNLƏRLƏ, BƏLKƏ DƏ YÜZ MİNLƏRLƏ AZƏRBAYCANLI HƏYATDAN NARAHAT GEDİB - ŞUŞANI GÖRMƏDƏN, AZADLIĞI GÖRMƏDƏN"

Bu gün artıq Azərbaycan reallıqlarını ortaya qoyub, abadlıq-quruculuq işlərinə başlanılıb. Amma təəssüfedici olsa da bildirək ki, Şuşanın həsrəti ilə neçə-neçə insan dünyadan köçdü. Dövlət başçısı "Qürur hissi keçirdim ki, biz tarix qarşısında öz vəzifə borcumuzu yerinə yetirdik", -deyə bildirib: "Təəssüf hissi keçirdim ki, bizim böyüklərimiz bu günü görməyiblər. On minlərlə, bəlkə də yüz minlərlə azərbaycanlı həyatdan narahat gedib - Şuşanı görmədən, azadlığı görmədən."

Bildiyimiz kimi, Şuşanın təməli 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulmuşdur və Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd ediləcəkdir. Şuşada tarixi dinimədəni abidələrimiz bərpa və təmir olunur. Şuşada üç məsciddə təmir-bərpa işləri aparılır. Bu məscidlərin təmirini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Şuşada olan 17 bulağın 17-si də qurudulmuşdur. Artıq Natəvan bulağı bərpa edilib, "Xarıbülbül" oteli istifadəyə verilib. Qısa bir zamanda görülən işlər, reallaşan işlər torpağa məhəbbətdən qaynaqlanır. Ermənilər tərəfindən güllələbaran edilmiş Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri artıq öz isti nəfəsli torpağındadır. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu. Bülbülün evinin açılışı oldu. Görülən işlərin davamı olaraq yeni yaşayış kompleksinin təməli də qoyulub. Bu kompleks tədbirlər onu göstərir ki, burada işlər sürətlə gedir. Artıq şuşalılar öz doğma şəhərinə gəlib ziyarət edirlər, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Azərbaycanın Mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur.

***Zümrüd BAYRAMOVA***

---

# Şagirdlərə qarşı şiddətin qarşısı necə alınmalıdır?

*TƏHSİL EKSPERTİ AYDINLIQ GƏTİRDİ*

"Danılmaz həqiqətdir ki, məhsuldar insan kapitalı üçün keyfiyyətli fərdlər gərəkdir. İnsanın gücünü şərtləndirən bilik və bacarığın mənbəyində isə təhsil dayanır. Adam Smit yaxşı və keyfiyyətli təhsil almış insanın ən bahalı maşının gördüyü işi edə biləcəyini söyləmişdir. Keyfiyyətli təhsil üçün tədris mühitinin bütün tərəfləri birlikdə mövcud olmalıdır. Həmin tərəflərdən biri də mühitin təhlükəsizliyidir. Çünki fərdlərin təhsili təhlükəsiz bir mühitdə almaları vacib məqamdır. Təhlükəsiz mühitdə olmayan təhsilalanlar yaxşı təhsil ala, bacarıqlarını təkmilləşdirmək üçün gərəkli olan mövzulara fokuslana bilməzlər. Maslovun motivasiya nəzəriyyəsinə görə, olduğu mühitdə özünü inamlı hiss etməyən bir şagirdin öyrənməyə təşviq edilməsi çox çətin, hətta mümkün olmayan bir işdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, məktəblərdə uğur və mükəmməlliyi təşkil edən faktorların önündə təhsil qədər təhlükəsizlik anlayışı da vacib bir yerə sahibdir: "Bunun səbəbi təhlükəsiz bir məktəb olmadan sağlam təhsil və tədris mühitinin təmin edilə bilməməsi həqiqətinin dayanmasıdır. Roger G.Barker 1968-ci ildəki araşdırmasının nəticələrindən sonra uşağın davranışlarının fərdi bacarıqları və zəkasından çox, içində yer aldığı mühitdən asılı olduğunu müdafiə etmişdir".

Kamran Əsədov sözlərinə belə davam edib: "Təhlükəsiz məktəblər şagirdlərin, müəllimlərin və məktəb kollektivinin digər üzvlərinin özlərini fiziki, psixoloji və sosial baxımdan tam azad hiss etdikləri yerlərdir. Təhsil müəssisələrində kollektiv və təhsil alanlar zaman-zaman fiziki, mexaniki, bioloji və kimyəvi təhlükələrlə qarşılaşa bilərlər. Bir məktəbi təhlükəli və ya təhlükəsiz olaraq adlandırmaq çətindir. Həmin məktəbin nə qədər təhlükəsiz olduğunu ölçmək olar. Məktəbin təhlükəsizliyini qiymətləndirmək təfərrüatlı bir tədqiqat tələb edir. Çünki təhlükəsiz məktəb çoxşaxəli bir anlayışdır".

Təhlükəsiz məktəb anlayışı şiddət və zorakılıq, narkotik maddələrdən istifadə və asılılıq, cinsi istismar, zorlama, qapalı məkan hava kirliliyi, radioaktiv şüalanma və təbii fəlakətlər, zəlzələ, sel və yanğın kimi bir çox məsələləri ehtiva edir. UNICEF məktəblərdə şiddəti qlobal bir problem kimi qiymətləndirir. Aparılan araşdırmalarda məktəbin təhlükəsizliyinə ən çox təsir edən amillərin zorakılıq, oğurluq, spirtli içki və narkotik maddə istifadəsi, quldurluq, məktəbə odlu və ya soyuq silah gətirilməsi halları olduğu müşahidə edilib. Məktəbin təhlükəsizliyinə onun böyüklüyünün də təsiri var. Araşdırmalarda məktəbin böyüklüyü ilə şiddət hadisələrinin sıxlığının bir-biri ilə mütənasib olduğu müşahidə edilib. Məktəbin təhlükəsizliyini təhdid edən bu amillər bir növ məktəbin yerləşdiyi mühitin təzahürüdür.

Məktəb mühitini etibarlı edən faktorların sırasında məktəb kollektivi, təhsil alanlar və valideynlərin özlərini azad və təhlükəsiz hiss etdikləri bir məktəb iqlimi yer almaqdadır. Aparılan beynəlxalq tədqiqatlarda təhlükəsiz məktəbin birdən çox standartı olduğu vurğulanır. Bunların ən effektivi məktəb iqlimidir. Məktəblərdəki şiddətin qarşısını almaq üçün ən yaxşı üsullardan biri maraqlı tərəflər arasındakı həqiqi, açıq və dəstəkləyici münasibətdir. Bu qarşılıqlı müsbət münasibətə məktəb iqlimi yön verməkdədir.

Məktəblərdəki şiddətin əsaslı şəkildə önünə keçməyin yolu müsbət məktəb iqliminə sahib olmaqdan keçir. Yeniliyə açıq və etibarlı məktəblərin ən böyük özəlliyi müsbət məktəb iqliminə sahib olmasıdır. Məktəb iqlimi şagirdlərin davranışlarına istiqamət verməklə bərabər, məktəb işçilərinin o məktəbə olan bağlılıqlarının artmasına və ya azalmasına da təsir göstərir. Müsbət məktəb iqlimi şagirdlərdə müşahidə edilən fiziki və duyğusal davranış pozuntularının azalmasında ən təsiredici komponentdir. Məktəblərin yerləşdiyi mühit, böyüklüyü və şagird sayının onun iqliminə təsiri ilə bağlı tədqiqatçılardan olan Kathleen Cotton 1996-cı ildə (School size, school climate, and student performance) bir araşdırmasında şagird sayı az olan kiçik məktəblərdə məktəb iqliminin müsbət yönümlü olduğunu və bunun da onların akademik nailiyyətlərinin yüksəlməsinə təsir etdiyini vurğulayıb. Məktəbin müsbət məktəb iqliminə sahib olması üçün öz damı altındakı fərdlərini nümayiş etdirdikləri davranışların məktəbin mühitinə və psixoloji atmosferinə birbaşa təsiri olduğu haqda məlumatlandırmalıdır.



Məktəb rəhbərləri müsbət məktəb iqlimini təmin etmək istəyirlərsə, məktəb, təhsilalan və valideynlər arasındakı əlaqə və münasibəti daim yaxın tutmalıdırlar. Eyni zamanda, direktorlar yeniliyə açıq olmalı, işbirliyini təmin etməli və iş başında öyrənməyi təşviq etməlidirlər. Valideynlər məktəbə sadəcə övladları ilə yaşanan problemlə əlaqədar onların fikir və təkliflərini almaq üçün də dəvət edilməlidirlər. Yüksək təhsil nailiyyətlərinə sahib Finlandiya məktəblərində qərarlar verilərkən valideynlərin fikri mütləq nəzərə alınır. Məktəb daxilindəki əməl edilməli olan qaydalar açıq və şagirdlər üçün anlaşıqlı bir şəkildə müəyyənləşdirilməlidir. Qısaca, məktəb iqliminə təsir edəcək amillərlə bağlı dəyişikliklər tərəflərin gözləntiləri və müvafiqliyi istiqamətində hazırlanmalıdır.

Bir çox ölkələrin təhsil müəssisələrində təhlükəsiz mühitin təşkili üçün müsbət iqlimə nail olmaq istiqamətində layihələr həyata keçiriblər. Bu layihələrdən biri Amerikada PDE (Program Development and Evaluation) tərəfindən həyata keçirilən məktəblərdə cinayət və kriminal hadisələrin azaldılmasına hədəflənmiş bir layihədir. Layihənin tətbiq edildiyi məktəblərdə 2 il sonra şiddət və cinayət hallarında ciddi azalma izlənilib. Oxşar bir layihə isə qonşu Gürcüstanda 2010-cu ildən tətbiq olunan Mandaturi layihəsidir. Türkiyədə də təhlükəsiz məktəb (Güvenli okul) devizi altında layihə həyata keçirilib. Hətta Türkiyədə məktəb mühitinin təhlükəsizliyinin təşkili üçün çalışacaq kadrların yetişdirilməsi nəzərdə tutularaq, bəzi universitetlərdə ixtisaslar açılıb".

***Ayşən Vəli***

ANALİTİK+AKTUAL

# Dünyanı düşündürən sual: Ukraynada müharibə olacaqmı?

*Və ya Moskva ilə Vaşinqtonun konfrontasiyası kollektiv Qərbin Rusiyaya qarşı münasibətində dəyişiklərə səbəb ola bilərmi?*

Moskva ilə Vaşinqtonun konfrontasiyası fonunda növbəti məqamları qeyd etmək olar - Rusiya bir daha kollektiv Qərbin ayrı-ayrı fraqmentlərinin dərin təhlilini apardı. Xüsusilə, "təhlükəsizlik zəmanəti" mövzusundan o da aydın göründü ki, sözügedən məsələ aktuallaşdıqca vəziyyət daha da gərginliyə doğru inkişaf etdi. Hətta Qərb Vaşinqtonun timsalında bu və ya digər formada Rusiyaya "təhlükəsizlik zəmanətini" verməsə, onda bu presedentdən Çin istifadə edəcək, özü də qarşıdurma atəşinə odunlarını atmaqla və alovu gücləndirmək məqsədi ilə. O cümlədən, Çin BMT-nin Təhlükəsizlik Şurasındakı mövqeyindən istifadə etməklə Moskva-Vaşinqton qarşıdurmasında vasitəçi rolunu da ala bilər. Əlbəttə ki, öz geosiyasi səmərələrinə zəmanətlər əldə etməsi mexanizmini işə salması sayəsində.

### Rusiya Normand formatının ölkələri ilə dialoqa getməyə başlayıb

Bu arada, Rusiya cərəyan edən olaylar fonunda, daha dəqiq desək, ABŞ-la dil tapa bilmədiyi üçün NATO-nun nəhəng üzvləri - Normand formatının Almaniya və Fransa kimi ölkələri ilə dialoqa getməyə başlayıb. Yəni Rusiya gündəmi bir neçə yerə bölüb:

1. Minsk razılaşmalarını Normand formatı üzərindən inkişaf etdirilməsi
2. Ukraynanın və Gürcüstanın Almaniyanın və mümkündür ki, Fransanın vasitəçiliyi ilə qısamüddətli perspektivdə NATO-ya üzvlükləri
3. ABŞ-la birgə sərhədlər yaxınlığında raketlərin yerləşdirilməməsi və qarşılıqlı inspeksiyaların aparılması.

Yeri gəlmişkən, Rusiyanın xarici işlər naziri Sergey Lavrov bi məsələni üçüncü dərəcəli olaraq qiymətləndirmişdi. Halbuki, Ukrayna əsasən ABŞ-ın patronajlığı ilə Qərbdən hərbi və maliyyə dəstəyi almaqdadır. Üstəlik, kollektiv Ukraynanın hesabına Qərb Rusiyaya öz təsir imkanlarını maksimum şəkildə tətbiq edir.



### Türkiyə dialoq mühitini yaratmaqla böyük müsbət işarəsini qazana bilər

Bu olaylar çərçivəsində NATO-nun digər əsas üvlərindən olan Türkiyənin də fəaliyyətini vurğulamaq olar. Belə ki, Ankara Rusiya-Ukrayna dialoqunun təşkil edilməsi və vasitəçiliyi istiqamətində ev sahibi rolunu almağa daim hazır olduğunu bəyan edib. O cümlədən, Türkiyə yaxşı bilir ki, əgər dialoq mühitini yaradarsa və mövcud situasiya həllini tapmasa belə, savaş təhlükəsi az da olsa kənarlaşdırılarsa, həmin məsələ Ankaraya böyük müsbət işarəsini verəcək. Yəni Türkiyə beynəlxalq məsələlərdəki mövqelərini Moskva-Vaşinqton münasibətləri vasitəsi ilə möhkəmləndirmək şansını əldə edir.



### Hələlik, qarşılıqlı müharibə şantajları nəticələr vermir və vəziyyət yalnız iqtisadi qarşıdurma məcrasında öz təsirlərini göstərir

Lakin tərəflərin qarşılıqlı müharibə şantajları hələ ki, nəticələr vermir və ümid edək ki, nəticələr verməyəcək. Vəziyyət isə yalnız iqtisadi qarşıdurma məcrasında öz təsirlərini göstərir. Rusiyaya qarşı sanksiyalar artırılır, amma Moskva sanksiyalara elə də əhəmiyyət vermir. Xüsusilə, Qərb Rusiya qazının kə-



siləcəyindən bərk ehtiyat edir.

Ancaq məsələ geosiyasi məcraya doğru inkişaf edirsə, Rusiya dərhal "düşmən qapının ağzındadır" siqnalını verməyə başlayır.

Onu da xatırlada bilərik ki, yaxın zamanlarda Pekində Rusiya prezidenti ilə Çinin baş katibinin görüşləri gözlənilir və məhz bu görüşdən sonra Kreml hansı yolla gedəcəyini dəqiqliklə müəyyənləşdirəcək: ya maksimum planı üzrə hərbi və iqtisadi müdaxilə sayəsində insan itkilərini verməklə, ya da minimal plan üzrə Qərbin fraqmentli araşdırmasını dərinləşdirməklə, yaranan sualları ayrı-ayrılıqda, sülh yolu ilə həll etməklə.

***Rövşən RƏSULOV***

---

# Qozbelin istəyi...



**...Deyirlər, paxıllıq ilk öncə gözlərdən başlasa da, daha sonra hərəkətlərdən və danışıqlardan bəlli olur.**

...Bir də deyirlər ki, paxıllıqdan betər dərd, yandırıcı od ola bilməz. Belə ki, paxıl adam heç vaxt rahatlıq tapmır; öz kədəri və başqalarının fərəhi ona dərd olur, qəlbini yeyir...

Deyəsən, bir az fəlsəfi oldu axı... Nə isə, keçək mətləbə...

...Deməli, bəzi ermənilərin dediyinə görə, hazırda hakimiyyət yalançı sülh təbliğatı aparsa da, amma İrəvanda rəyi soruşulan erməni əhlinin coxu Türkiyə və Azərbaycanın Ermənistan üçün "ekzistensial təhlükə olduğunu" bildiriblər. Maraqlıdır ki, bunları əsas tutan türkoloq Varujan Qeqamyanın fikrincə,.. məhz buna görə də bu gün erməni müxalifəti daha çox bu sahədə işləyib siyasi qərarların qəbulunda bu çoxluğun rəyinə üstünlük verməlidir.

Qeyd edilməlidir ki, yenə də bəzi ermənilərə görə, bugünkü real müxalifətin Nikol Paşinyandan nə tələb etməsi böyük önəm kəsb edir. Doğrudur, hazırda Nikol bəzi "para-pura" işlərlə, məsələn, xırda istefaya göndərmələr, hansısa nazirə "xox" gəlməklə gündəmdə qalmağa can atsa da, amma müxalifətin elə bir fəal fəaliyyəti də sezilmir.

Bu gün ermənilərin dediklərinə inansaq, belə məlum olur ki, guya hazırda sistem böhranının yeganə həlli yolu kimi Paşinyanın istefası və ölkəni xaosdan və davamlı məğlubiyyətlərdən çıxarmağa çalışacaq müvəqqəti hökumətin formalaşdırılması ilə məşğuldur. Ona görə də, vəziyyətin minimum sabitləşməsindən, yeni bir ildən sonra yeni parlament və hökumətin formalaşdırılmasının məqsədəuyğunluğu məsələsinə baxıla bilər. Üstəlik, gələcək hökumət heç bir halda, bugünkü Nikol kimi, təkpartiyalılığa əsaslanmamalıdır.

Məsələ bundadır ki, "...2021-ci ildə növbədənkənar seçkilər zamanı bəzi müxalifətçilərin aşağı düşmüş reytinqindən istifadə edən Paşinyan özünün mövcud olmayan reytinqini süni şəkildə artırmağa nail oldu. Ancaq bu dəfə, hər gün, hər həftə vəzifədə ona itirilmiş səs bahasına başa gəlir və hakimiyyət dəyişikliyi nə qədər uzansa, Paşinyan üçün bir o qədər ağrılı ola bilər".

Bildirək ki, bunu erməni mətbuatı yazır.

Yenə də maraqlıdır, görən, bütün bunları tirajlayıb "Nikol hökumətini nüfuzdan salmaqda" məqsəd nədir. Qeyd edək ki, hər şeydən əvvəl ermənilər arasında birtərəfli qarşılanmayan Azərbaycanı Naxçıvanla birləşdirəcək dəmir yolu xətti...

Məsələn ermənilərə görə, "... Ermənistan üçün guya bu dəmir yolunun açılması onların dövlət və milli maraqlarının sonunu gətirəcək". Bunu da erməni mətbuatı yazır.

Yeri gəlmişkən xatırladaq ki, bir müddət bundan əvvəl etmənilərin iqtisadiyyat naziri Vahan Kerobyan regionda nəqliyyat kommunikasiyalarının açılacağı təqdirdə Ermənistanda ÜDM-ni 30 faiz artırmağa imkan verəcəyini bildirmişdi. Təbii ki, bu ac-yalavac bir ölkə üçün gözəl bir göstərici kimi qəbul edilə bilərdi. Qeyd edək ki, ermənilər arasında Kerobyan bu təklifini qəbul edib təqdir edənlərin sayı da xeyli artmışdı. Lakin sonradan bu fikrin erməni nazirlər arasında ...ciddi qəbul etmək mümkün olmayan bir məmur tərəfindən səsləndirildiyini əsas gətirərək, tez də unutdular.

Bu arada... ötən gün, öz "iqtisadiyyatının artım tempini" Gürcüstan iqtisadiyyatının artım tempi ilə müqayisə edən erməni iqtisadçı Suren Parsyan həsədlə gürcülərin ikirəqəmli iqtisadi artım əldə etdiklərini bildirib. Əslində, bu həsəd yox, paxıllıqdır, əsl erməni paxıllığı. Təbii ki, hazırkı məqamda da əlindən yalmanmaqdan başqa bir şey gəlməyən ermənilər, yuxarıda dediyim kimi, paxıllıqdan rahatlıq tapa bilmirlər...

Bu dəfə də yeri gəlmişkən deyəcəm...

...Deməli, bir gün bir qozbeldən "belindəki qozun" götürülməsini istəyirsənmi, deyə sual edirlər. Bilirsiniz qozbel nə cavab verir?.. Deyir ki, belimdəki qozun götürülməsini yox, hamının mənim kimi qozbel olmasını istəyirəm.

***Ağasəf Babayev***

# Rus ekspert: “Zəngəzur nəqliyyat dəhlizinin açılması Ermənistanın inkişafının qarantıdır”

**Sankt-Peterburq Dövlət Universitetinin professoru, iqtisad elmləri doktoru Stanislav Tkaçenko ”Caliber” analitik mərkəzinə müsahibəsində Rusiya-Azərbaycan-Ermənistan arasında iqtisadi münasibətlərin vəziyyətinə toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb.*



***- Rusiyaya qarşı sanksiyalar Ermənistanın iqtisadiyyatına təsir edə bilərmi?***

- Bu suala düzgün cavab vermək üçün Rusiyaya qarşı hansı sanksiyalardan söhbət getdiyinə aydınlıq gətirmək lazımdır. 2014-cü ildə 3 mərhələdə (mart, iyul və sentyabr aylarında) tətbiq edilən anti-Rusiya sanksiyaları Barak Obamanın təbirincə desək, ”Rusiya iqtisadiyyatını parçalamaq” məqsədi daşıyırdı. Demək olar ki, 8 il ərzində belə bir şey olmadı. Rusiya iqtisadiyyatı inkişafını bir az ləngitdi (ildə təxminən 1 faiz), 2 il ərzində (2015-2016) əhalinin həyat səviyyəsi nisbətən aşağı düşdü. Lakin o zaman tətbiq olunan sanksiyaların mənfi nəticələrinin aradan qaldırılması var idi, indi onların təsiri minimuma yaxındır.

Üstəlik, Rusiya ona qarşı yeni ticarət-iqtisadi sanksiyalara hazırlaşmaqla məşğuldur və bu gün çətin ki, heç bir sanksiyalar onun iqtisadiyyatını təəccübləndirsin. Yeni sanksiyalara hazırlığın formalarından biri Ermənistanın yarandığı gündən tamhüquqlu üzvü olduğu Avrasiya İqtisadi İttifaqı çərçivəsində inteqrasiyanın sürətləndirilmiş inkişafıdır. Bəzi rus şirkətlərinin Aİİ ölkələrində onlar üçün yeni bazarlara yönləndirilməsi tam sürətlə davam edir, beləliklə, milli iqtisadiyyatın sabitliyini və ABŞ və onun müttəfiqlərinin üstünlük təşkil etdiyi bazarlardan qopmasını gücləndirir.

Odur ki, mümkün yeni sanksiyaların Rusiya-Ermənistan münasibətlərinə və nəticədə Ermənistan iqtisadiyyatına təsiri nəzərə çarpacaq, lakin əhəmiyyətli olmayacaq. İki ölkə arasında qarşılıqlı ticarət ildə 1,7 milyard dolları keçmir və Rusiyanın Ermənistana ixrac etdiyi və istehsalı yeni sanksiyaların təsirinə məruz qala biləcək malların payı demək olar ki, sıfıra bərabərdir. Hətta bu gün bəzi hallarda ticarət ABŞ dolları ilə aparılırsa, o zaman Rusiya şirkətləri üçün hesablaşmalar üçün Amerika valyutasından istifadə etməkdə çətinlik yarandığı halda onu rubla çevirmək Rusiyanın xeyrinə olacaq.

***- Hazırda Ermənistan iqtisadiyyatını dirçəltmək üçün hansı addımları ən optimal və effektiv hesab edirsiniz?***

- Bu, Ermənistanda hələ də həllini tapmayan fundamental problemdir. O, dayanıqlı və səmərəli institutların (müstəqil məhkəmələr, xüsusi mülkiyyətin və xarici investisiyaların müdafiəsi) yaradılmasından başlamalıdır, daha sonra iqtisadiyyatın dövlət sektorunda islahatların aparılması və bəzi dövlət müəssisələrinin özəlləşdirilməsi proqramı işlənib hazırlanmalı, vergi sistemi və büdcə tarazlığı tənzimlənməlidir. Təbii ki, sərhədlərin, o cümlədən Türkiyə ilə sərhədin və Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan və Rusiya istiqamətində açılması da Ermənistan iqtisadiyyatının inkişafı ilə bağlı strateji proqramın tərkib hissəsidir.

***- Rusiyanın SWIFT banklararası telekommunikasiya sistemindən mümkün qopması Ermənistandakı vəziyyətə mənfi təsir göstərə bilərmi?***

- Təbii ki, nəzəri cəhətdən Rusiyanın SWIFT ödəniş sistemindən ayrılması Rusiyanın iqtisadiyyatına və xarici ticarətinə mənfi təsir göstərəcək. Burada iki məqamı qeyd etmək lazımdır.






Birincisi, indiki şəraitdə Rusiyanın SWIFT-dən ayrılması çətin ki, aktualdır. Məsələn, İranın təcrübəsini təhlil etsək, belə bir addım diplomatik münasibətləri kəsməyə bərabərdir. Bu, diplomatik münasibətlər kəsildikdən və tərəflər münaqişə həddinə çatdıqdan sonra davam edə bilər. Bu gün ABŞ və ya Avropada belə bir ssenarini dəstəkləyən bir siyasətçi belə təsəvvür edə bilmirəm. Baxmayaraq ki, sabah hər şey dəyişə bilər.

İkincisi, yuxarıda qeyd etdiyimiz kimi, belə bir addımın mənfi təsiri uzunmüddətli olmayacaq. Planetdə Rusiyanın SWIFT-dən ayrılmasını dəstəkləməyəcək bir çox dövlətlər var. Onlar maliyyə əməliyyatlarının aparılması üçün alternativ yollar yaratmağa çalışacaqlar. Axı Rusiya iqtisadiyyatı bu gün alıcılıq qabiliyyəti paritetinə (4,1 trilyon dollar) görə dünyada 6-cı yerdədir və onda baş verəcək hər hansı zərbə qlobal təsir göstərəcək.

Beləliklə, Ermənistan üçün Rusiyanın SWIFT-dən ayrılması faktoru ekzistensial təhlükə deyil.

***- Sizcə, anti-Rusiya sanksiyaları Rusiya-Azərbaycan münasibətlərinin iqtisadi komponentinə necə təsir göstərə bilər?***

- Şübhə yoxdur ki, yeni sanksiyalar paketinin tətbiqi Rusiya iqtisadiyyatını durğunluğa və ya qısamüddətli resessiyaya apara bilər. Belə olan halda ölkənin iqtisadi potensialı və Azərbaycanın ticarət tərəfdaşı kimi cəlbediciliyi azalacaq. İki dövlətin ticarət dövriyyəsi Rusiya-Ermənistan ticarət dövriyyəsindən təxminən 2 dəfə çoxdur (2021-ci ildə 3 milyard dollardan bir qədər çox). Və iki dövlət arasında iqtisadi əlaqələrin çox sıx olduğunu nəzərə alsaq, Ermənistana qarşı qeyd olunan anti-Rusiya sanksiyalarının bütün mənfi nəticələri Rusiya ilə Azərbaycan arasındakı münasibətlərə təxminən eyni şəkildə təsir edəcək. Bu o deməkdir ki, Rusiya şirkətləri üçün ölkənizin iqtisadiyyatına investisiya qoymaq çətinləşəcək, idxal azalacaq, rublun məzənnəsindəki dalğalanmalar Azərbaycandan olan bəzi potensial tərəfdaşları Rusiyadan qorxudacaq. Düşünürəm ki, Rusiya ilə ABŞ və onların müttəfiqləri arasında münasibətlər qarşılıqlı sanksiyalar mərhələsinə çatmayacaq, tərəflərin münasibətləri isə bütünlüklə diplomatiya müstəvisində qalacaq.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
4 fevral
2022-ci il



# Mahir Emreli Zaqreb "Dinamo"sunda

**Futbol üzrə Azərbaycan millisinin hücumçusu Mahir Emreli karyerasını Xorvatiyada davam etdirəcək. 25 yaşlı hücumçu Zaqreb "Dinamo"suna keçib. Bu barədə Xorvatiya klubunun rəsmi saytı məlumat yayıb.**

Polşa "Legiya"sı ilə müqaviləsini qarşılıqlı razılaşma ilə pozan forvard yeni klubu ilə 4,5 illik sözləşmə imzalayıb. Futbolçumuz ötən ilin yayından Varşava təmsilçisində oynayırdı.


## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN


## Uşaqlara cinsi tərbiyəni NECƏ ÖYRƏTMƏLİYİK?

"Ümumiyyətlə, bu günün ən aktual mövzularından biri cinsi maarifləndirmə və cinsi tərbiyədir. Hansı ki, bu, bağçadan başlamalıdır, sonra məktəbdə, yəni tədris qaydasında uşaqlarla ən azından həftədə bir dəfə istər ictimai işlərlə məşğul olan bir insan, istərsə də məktəbin psixoloqu, cinsi maarifləndirmə aparmalıdır". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Psixologiya Elmi Tədqiqat İnstitutunun psixoloqu Lalə Əhmədova deyib. Psixoloq qeyd edib ki, cinsi maarifləndirmənin olması onlarda bir müdafiə mexanizmi yaradır, yəni deyək ki, hər hansı bir cinsi təcavüzə, cinsi istismara məruz qalan insan, həmin anda çox vaxt donub qalır və reaksiyaları dayanır, səsini belə çıxara bilmir: "Lakin cinsi maarifləndirmə apardığımız uşaqlar artıq bilir ki, onlara kimsə toxunarsa, hər hansısa cinsi təcavüz etməyə cəhd edərsə qışqırmalı, köməyə kimisə çağırmalı, böyüklərə bu barədə məlumat verməlidir. Çünki bəzən utancaqlıq dediyimiz qorxular, insanın bütün taleyi ilə oynaya bilər, hansı ki, çox-çox rast gəldiyim situasiyadır və mən onların böyümüş variantları ilə işləyirəm. İnanın ki, o travmaların qarşısını almaq mümkün olmur, onların həyatına çox böyük təsir edir ki, bu, tam cinsi təcavüz də ola bilər, natamam bir vəziyyət də ola bilər. Ancaq istər-istəməz uşağın psixikasına təsir edir. Bu vəziyyət qızlarda da, oğlanlarda da eynilə görülür, sadəcə olaraq, bildiyimiz kimi, qızlarda bu, daha çox bilinir, amma oğlanlarda da cinsi təcavüzə məruz qalan uşaqların sayı o qədər də az deyil. O baxımdan, cinsi maarifləndirmə məktəbdən başlayaraq aparılmalıdır və bu, bizim gələcəyimiz üçün ən doğru atılan addımlardan biridir".

***Rüqəyyə Orucova***



## İdman insan həyatında əvəzsiz rol oynayır

"İdman, ilk növbədə, orqanizmi sağlam şəkildə saxlamaq üçün əsas faktordu. İdman məcburi olmasa da, hər bir insan gündəlik həyatında rutin formasında idmanla məşğul olmalıdı". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Strongman Federasiyasının məşqçisi Tuncay Almuradlı bildirib. Onun sözlərinə görə, bugünkü zamanda insanların ən aktual problemi artıq çəkidən azad olmaqdı: "Zala yaxınlaşan 10 nəfərdən 7-si artıq çəkidən azad olmaq üçün idmanla məşğul olur. Hər bir şəxs müxtəlif səbəblərdən idmanla maraqlanır. Bəziləri artıq çəkidən azad olmaq, bəziləri yarışlar, bəziləri isə sırf sağlamlıqları üçün idmanla məşğul olurlar. Bununla yanaşı, eləələri var ki, bədənlərini formaya salmaq və ideal bədən proporsiyonunu əldə etmək üçün idmanla məşğul olur. Düzgün idmanın əsas hissəsi qidalanmadan keçir. Qidalanmada isə ən mühüm faktor sudur. İnsanlar gündəlik olaraq çay və ya meyvə şirəsi içir və zənn edirlər ki, onlar bu gün orqanizm üçün su rasiyonunu doldurdular. Lakin meyvə şirəsi və çay su deyil. Hər bir kiloqrama 30 ml su düşür. Həftədə 2-3 saat idman etmək lazımdı. Lakin deyə bilərəm ki, gündəlik olaraq 30 dəqiqə fitneslə məşğul olunmalıdı. Əgər kiminsə imkanı yoxdursa, yəni fitnes zalına gedə bilmirsə gündəlik olaraq fiziki şəraiti aktiv etmək üçün 10-15 dəqiqə təmiz havada gəzməlidi. Ümumiyyətlə məsləhət görərdim ki, hər bir valideyn öz övladını idmanla məşğul olmaq üçün sövq etməlidi".

***Banuçiçək Hüseynli***

## Diqqət: Qoz xərçəng riskini azaldır



**Qoz və tum sağlamlığını düşünən bir çox insanın mətbəxində əsas məhsullardan biridir. Qozun istehlakı 2-ci növ diabetin daha aşağı inkişaf riski və ürək-damar xəstəlikləri riski ilə əlaqədardır.**

Marşall Universitetində aparılan tədqiqat göstərir ki, iki həftə ərzində gündə 2 unsiya (60 qram) qozun istehlakı süd vəzi xərçənginin artımını yavaşladı və ya bu xəstəliyin inkişaf riskini azaltdı. "Medik-Forum" xəbər verir ki, xərçəngə qarşı üstünlük xərçəng hüceyrələrinin artımı və sağ qalmasına görə cavabdeh olan genlərin dəyişdirilmiş ekspressiyası ilə əlaqədar idi.

Qozun tərkibində maddələr mübadiləsi prosesində orqanizmdə urolitinlərə çevrilən pedunkulaqin adlı maddə var. Urolitinlər estrogen reseptorları ilə əlaqəli olan və süd vəzisi xərçənginin qarşısının alınmasında rol oynaya bilən birləşmələrdir.

Həmçinin aşkar edilmişdi ki, qozun qəbulu aşağı sıxlıqlı lipoproteinlərinin - "pis xolesterin" səviyyəsini 16 faizə qədər aşağı salır, diastolik arterial təzyiqi 2-3 millimetr civə sütunu aşağı salır və oksidləşdirici stresi və iltihabı azaldır. Oksidləşdirici stres azad radikallar adlanan qeyri-sabit molekulların orqanizmdə hüceyrələrin zədələnməsinə səbəb olduğu prosesi təsvir edir.


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**